

Milli azadlıqdan
şirin nemət yoxdur!

# COP29 dünyanın diqqət mərkəzindədir




Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

22 noyabr
2024-cü il,
cümə
№ 214 (6800)
Qiyməti
60 qəpik

# Azərbaycan yeni iqlim maliyyəsi institutunu formalaşdırıb



Bax səh. 2

# Sülhə nə qaldı?

Bax səh. 3

## COP-un Su Strategiyası

COP29-da müzakirə olunan başlıca məsələlərdən biri də su və iqlimə uyğunlaşma mövzuları olub. Qlobal iqlim ailəsinin gündəmində ən prinsipial qərarlar da məhz planetin gələcək su təminatı ilə bağlı təşəbbüslərə söykənir.

BMT-nin Qlobal Müqavilələsinin baş direktorunun su mandatı üzrə rəhbəri Ceyson Morrison bildirib ki, qlobal iqlim dəyişikliyinin ən çox təsir etdiyi sahələrdən biri su ehtiyatları ilə bağlıdır. Hazırda dünya ölkələri üçün su və iqlim dəyişikliyi anlayışı eyni qlobal mahiyyət daşıyır və hər bir ölkəni mövcud su resurslarını qoruyub saxlamaq, habelə dayanıqlı...

Bax səh. 3



Bax səh. 3

## YAP Sədrinin müavini ICAPP Daimi Komitəsinin 42-ci iclasında iştirak edib

## Turizm Bəyannaməsi və yol xəritəsi

COP29 çərçivəsində keçirilən Turizm Günündə "Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə Nazirlərin Birinci Görüşü"nün yekunu olaraq Bəyannamə elan edilib. 50-dən çox ölkə və 8 qeyri-dövlət sektoru təmsilçilərinin qoşulduğu "Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə COP29 Bəyannaməsi" qlobal iqlim çağırışlarının turizm sənayesi üçün qarşıya qoyduğu hədəf və prinsipləri nəzərdə tutur. Tədbirdə...

Bax səh. 5

## Berlin Parisi bloklayır...

Avropa yeni siyasi situasiyanın astanasındadır. 2025-ci ilin əvvəlindən etibarən dünyada yeni siyasi münasibətlər sisteminin formalaşdırılması gözlənilir ki, bunun da ən böyük ölçüdə məhz Qərbin siyasi davranışlarına təsir edəcəyi proqnozlaşdırılır. Başqa sözlə, yeni nizam Qərbdə "tərəzinin çəki daşlarını" dəyişəcək.

Bu prosesə hazırlığın getməsi isə müəyyən ştrixlərlə diqqəti cəlb edir. Xüsusilə, ABŞ-da keçirilən son prezident seçkilərinin nəticələri yeni siyasi proseslərin inkişafına yön verən hadisə kimi qiymətləndirilir. Bu fonda isə:

- Avropada son bir neçə...

Bax səh. 7

## "Şəffaflıqda gender"...

Bax səh. 5

## Afrika xalqları Bakıda müstəmləkəçiliyə qarşı birləşir

Bax səh. 4

## Dördüncü veto...

Ötən il oktyabrın 7-dən başlayan növbəti İsrail-Fələstin qarşıdurmasının lokal və qısamüddətli olacağı barədə ehtimallar özünü doğrultmadı. Qarşıdurma artıq yaxın coğrafiyalara da sirayət edərək uzanan müharibəyə çevrilib. Yaxın Şərqi qan gölünə döndərən, miqyasına görə çox böyük humanitar fəlakətə səbəb olan müharibənin nə vaxt sonuclanacağını isə proqnoz etmək çətindir.

Qarşıdurmanın lokal səviyyədən çıxmasının və daha da şiddətlənməsinin ən mühüm səbəblərindən biri isə kənar güclərin əslində müharibənin gizli tərəfləri qismində çıxış etmələridir. Belə güclər hər iki tərəfdə var və onlar yanan odu söndürmək əvəzinə, onun üstünə yağ tökməklə müharibəni...

Bax səh. 5



## İkinci cəhd...

## Fransa Makrondan xilas olmalıdır

Bax səh. 7

## III Dünya müharibəsinin astanasında...

Bax səh. 6

# COP29 dünyanın diqqət mərkəzindədir

## Ölkəmizin irəli sürdüyü təşəbbüsləri beynəlxalq ictimaiyyət dəstəkləyir

Bakıda keçirilən COP29 bütün dünyanın diqqət mərkəzindədir. Qlobal iqlim dəyişiklikləri ilə mübarizə tədbirində geniş müzakirələr aparılır. COP29-da əsas məqsədlərdən biri isə Azərbaycanın irəli sürdüyü iqlim maliyyələşməsidir. Ölkəmizin irəli sürdüyü bu və digər təşəbbüslər beynəlxalq ictimaiyyət tərəfindən də dəstəklənir.

### BMT-nin Baş katibi: Biz Bakıda uğur qazanmalıyıq

Belə ki, BMT-nin Baş katibi Antonio Quterreş G20 liderlərinin Rio-de-Janeyroda keçirilən sammitində çıxışı zamanı COP29-un uğurla keçirilməsinin vacibliyini vurğulayıb. O, çıxışında Bakıda keçirilən COP29-un müvəffəqiyyət qazanmasının qlobal iqlim tədbirlərində həlledici rol oynayacağını bildirib: "Biz Bakıda uğur qazanmalı, inam yaratmalı və gələn il yüksək ambisiyalı milli iqlim planlarının hazırlanmasını təşviq etməliyik. Uğursuzluq seçim deyil. Əks halda, yeni milli iqlim fəaliyyət planlarının hazırlanmasında ambisiyalar azalar və geri dönüşü olmayan iqlim dəyişikliklərinə daha da yaxınlaşarıq".

A.Quterreş qeyd edib ki, COP29-un nəticələri COP30-un Braziliyada uğurla keçirilməsi üçün möhkəm zəmin yaratmalıdır. O, inkişaf etməkdə olan ölkələrin ehtiyaclarını qarşılamaq üçün güzəştli ictimai maliyyə vəsaitlərinin əhəmiyyətini xüsusi vurğulayıb. Baş katib qlobal iqlim böhranının kritik həddə çatdığını deyib: "Əgər qlobal temperatur artımını 1,5 dərəcə selsi ilə məhdudlaşdırmasaq, fəlakətli nəticələrlə üzləşəcəyik". Baş katib G20 liderlərini istixana qazı emissiyalarının azaldılması məsələsində liderlik nümayiş etdirərək Azərbaycanda eyni vaxtda keçirilən iqlim danışıqlarını dəstəkləməyə çağırıb. O, bütün ölkələri iqlim dəyişikliyi ilə mübarizədə daha iddialı tədbirlər görməyə dəvət edərək, G20 ölkələrinin qlobal emissiyaların 80 faizinə cavabdeh olduğunu xatırladıb: "Yeni milli iqlim planları konkret emissiya azaldılması hədəflərini ehtiva etməli, bütün sektorları və istixana qazlarını əhatə etməlidir".

Bundan əlavə, Baş katib iqlim dezinformasiyası ilə mübarizə məqsədilə BMT, Braziliya və UNESCO-nun "İqlim dəyişikliyi üzrə məlumatın dəqiqliyi ilə bağlı qlobal təşəbbüs" adlı yeni layihəyə start verəcəyini elan edib. Çıxışının sonunda A.Quterreş bərpaolunan enerji mənbələrinə keçidin sürətləndirilməsinin, iqtisadiyyatların şaxələndirilməsinin və ədalətli keçidin təmin olunmasının vacibliyini vurğulayıb.

Antonio Quterreş Braziliyada keçirdiyi mətbuat konfransında da deyib ki, COP29-da uğurlu nəticə hələ də əlçatandır, lakin bu, həm də C20 ölkələrindən liderlik və kompromis tələb edəcək. BMT-nin Baş katibi Bakıda davam edən danışıqlarda inkişaf etməkdə olan ölkələrə iqlim sərmayələri üçün 1 trilyon dollarlıq razılaşmanın əhəmiyyətini vurğulayıb. O deyib: "G20 ölkələri qlobal emissiyaların 80 faizinə malikdir və məhz onların bu məsələdə örnək olması lazımdır".



### Braziliyanın ətraf mühit naziri COP29-un önəmini vurğulayıb

ABŞ Prezidenti Cozef Bayden isə administrasiyasının bu il ikitərəfli iqlim maliyyəsi üçün 11 milyard dollar ayırdığını bildirib. O, həmçinin iki ay ərzində onun vəzifəsini təhvil alacaq Prezident Donald Trampa istinad edərək, hökumətinin istiqamətləndirdiyi təmiz enerji inqilabının dönməz bir proses olduğunu vurğulayıb.

Braziliyanın ətraf mühit naziri Marina Silva isə bildirib ki, G20 iştirakçılarının "ev tapşırığını yerinə yetirməsi və Bakıda keçirilən COP29 danışıqlarının irəliləməsinə dəstək verməsi fundamental məsələdir".

### Azərbaycanın iqlim dəyişmələrinə qarşı tədbirləri yüksək qiymətləndirilib

Yeri gəlmişkən, ölkəmizdə keçirilən COP29 çərçivəsində müxtəlif ölkələrin və beynəlxalq təşkilatların rəhbər şəxsləri də tədbirin önəmini vurğulayıblar. Belə ki, BMT Baş katibinin köməkçisi, BMT İnkişaf Proqramının (UNDP) Siyasət və Proqrama Dəstək Bürosunun direktoru Markos Neto COP29 çərçivəsində keçirilən "Qafqaz dağları və ətrafı üçün dayanıqlılıq tədbirləri: milli adaptasiya planları (MAP) və regional yanaşmalar" mövzusundakı tədbirdə çıxışı zamanı Azərbaycan hökumətini Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCC) öz milli adaptasiya planını təqdim etməsi münasibətilə təbrik edib və bu nailiyyətə UNDP-nin dəstək verdiyini vurğulayıb. O, Azərbaycanla UNDP arasında mövcud sıx əməkdaşlığın iqlim dəyişikliklərinə uyğunlaşma və karbon emissiyalarının azaldılması istiqamətində mühüm əhəmiyyət daşıdığını qeyd edib: "Azərbaycan hökuməti ilə tərəfdaşlıq çərçivəsində bərpaolunan enerji strategiyasının inteqrasiyası, enerji səmərəliliyinin artırılması və əsaslı yanaşmalar vasitəsilə biomüxtəlifliyin qorunması istiqamətində mühüm işlər görülür. Xüsusilə dağ ekosistemlərində və həssas icmalarda iqlim dəyişikliklərinin yaratdığı risklərə qarşı tədbirlər həyata keçirilməsi çox vacibdir".

Markos Neto iqlim dəyişikliklərinə adaptasiya üçün maliyyə resurslarının çatışmazlığını da vurğulayıb. O qeyd edib ki, hazırda inkişaf etməkdə olan ölkələrin illik adaptasiya ehtiyacları ən azı 250 milyard ABŞ dolları təşkil edir, lakin mövcud beynəlxalq maliyyə axınları bu ehtiyacları qarşılamaq üçün kifayət deyil. Milli və regional səviyyədə strateji yanaşma adaptasiya tədbirlərinin daha geniş miqyasda həyata keçirilməsinə töhfə verəcək. Markos Neto Azərbaycanın milli adaptasiya planını təqdim etməsi istiqamətində atdığı mühüm addımları bir daha yüksək qiymətləndirib və iqlim dəyişikliklərinə uyğunlaşma tədbirlərinin uğurla həyata keçirilməsi üçün maliyyə resurslarının səfərbər edilməsinin vacibliyini vurğulayıb.

### Şotlandiya parlamentində COP29-un sülh səyləri ilə bağlı qətnamə...

Məlumdur ki, Azərbaycan COP29-un keçirildiyi günlərdə dünyada davam edən münaqişələrdə atəşkəsin elan olunması təşəbbüsü ilə çıxış etmişdi. Ölkəmizin sülhə xidmət edən bu çağırışı da beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənir. Şotlandiya parlamentində "COP29-un sülh quruculuğu səyləri və COP atəşkəs təşəbbüsü" adlı qətnamənin irəli sürülməsi də bunun göstəricisidir. Parlamentin rəsmi internet səhifəsində yerləşdirilən qətnamədə COP29-un dünyada, o cümlədən Azərbaycan və Ermənistan arasında sülh, beynəlxalq əməkdaşlıq və dostluq üçün əlamətdar hadisə olduğu vurğulanır. COP29-da iqlimlə bağlı fəaliyyətin sülh və əməkdaşlıq üçün xalqlar arasında necə körpü rolunu oynaya biləcəyi sənəddə qeyd olunur.

Sənəddə həmçinin, dünyada davam edən münaqişələrdə iştirak edən bütün tərəfləri hərbi əməliyyatları dayandırmağa çağıran "COP atəşkəs" təşəbbüsünə dəstək ifadə olunur. COP29-un beynəlxalq iqlim danışıqları üçün həlledici məqam olduğu bildirilir və tədbirdə iştirak edən bütün tərəflərə iqlim böhranı ilə əsaslı şəkildə mübarizə aparmaq üçün əməkdaşlığa çağırış edilir. Sözügedən qətnaməni 5 siyasi partiyadan - Leyboristlər, Mühafizəkarlar, Yaşıllar, Liberal Demokratlar, Şotlandiya Milli Partiyasından 25 nəfər parlament üzvü dəstəkləyib.

### COP29 noyabrın 23-dək davam edəcək

Qeyd edək ki, Bakıda keçirilən COP29-un müddəti də uzadılıb. İlkin plana əsasən noyabrın 22-də yekunlaşmalı olan konfrans ayın 23-də də davam edəcək. Bu qərar tədbirin gündəliyindəki mühüm məsələlərin tam həll olunması və iştirakçı dövlətlərin fikir mübadiləsinin effektiv şəkildə davam etməsi üçün qəbul olunub.

*Nardar BAYRAMLI*

# Azərbaycan yeni iqlim maliyyəsi institutunu formalaşdırıb

## COP29 çərçivəsində 500 milyard dollarlıq yeni maliyyə hədəfinə nail olunması nəzərdə tutulur

COP29 çərçivəsində iştirakçı ölkələrin müzakirə etdiyi əsas mövzulardan biri iqlim maliyyələşdirilməsi ilə bağlı yeni həll yollarını tapmaq, dayanıqlı və işlək maliyyə arxitekturasını formalaşdırmaqdır. Hazırda iqlim koalisiyasının üzvləri yeni maliyyə hədəfinin müəyyən olunması üçün 300-500 milyard dollar arasında yeni maliyyə portfelinin yaradılması ətrafında fəal danışıqlar aparmaqdadır.

Məsələ ondadır ki, beynəlxalq ictimaiyyətin və COP ailəsinin nəzərləri iqlim maliyyəsində Avropa İttifaqı (Aİ) və ABŞ-ın üzərinə yönəlsə də, Qərb blokundan təminatlı mövqe sərgilənməməkdədir. Amerika və Avropa qlobal iqlim hədəflərinə çatmaqda öz regionlarındakı iri investorları, maliyyə-bank strukturlarını bu səmtə yönətmək məsələsində həssaslıq nümayiş etdirmir və böyük maliyyə yükünün altına girmək istəmir. Hətta ABŞ-ın yeni rəhbərliyinin iqlim məsələlərində o qədər də iradəli və effektli tədbirlərə meyilli olmadığına dair fikirlər dolaşır ki, bu da ümidsizliyə yol açır. Kollektiv Qərb hər bir vəchlə yüksək inkişaf səviyyəsi və maliyyə imkanları olan inkişaf etməkdə olan ölkələri prosesə daxil etmək istəyir. Qərb xüsusilə bu prosesə Çin, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və bu qəbildən olan ölkələri cəlb etmək istəyitr.Cənubi Koreya və Sinqapur və müəyyən mənada Ərəb Əmirlikləri bu sıraya qoşulsalar da, Çin və Səudiyyə Ərəbistanı etiraz edərək Qərb koalisiyasının da məsuliyyətini anlamağa çağırır.

### ABŞ və Avropa İttifaqı ikili standarta yol verir

Bu gün dünyada ətrafa mühitə zərər verən, daha doğrusu, karbon-dioksidi yayan əsas ölkələrin də əksəriyyəti məhz Qərb regionu ölkələridir. Məsələn, enerji və sənaye sektorlarında istixana effekti yaradan bu qazların 50 faizi ABŞ və Avropa ölkələrinin payına düşür. ABŞ təkcə il ərzində 5 milyard tondan çox karbon emissiya edir. Yaxud Böyük İyirmilik (G20) ölkələrinin dünya üzrə karbon emissiyası 85 faiz təşkil edir.

Sual oluna bilər ki, niyə ABŞ başda olmaqla, bəzi Qərb ölkələri karbon emissiyasının azaldılması prosesində kağız üzərində "təşəbbüskarlıq" göstərsə də, real nəticəyə gəldikdə, məsuliyyətindən yayınmağa çalışır. Bunun səbəbi ABŞ və Avropadkı iri sənaye holdinqlərinin, enerji korporosiyalarının maraqları ilə bağlıdır. Çünki "yaşıl enerji"yə keçid sənaye və mədənçıxarma fəaliyyətlərini məhdudlaşdırmağı, nüvə-enerji stansiyalarını dayandırmağa və alternativ sənaye sektoru qurmağı tələb edir. Ancaq buna baxmayaraq, dünyada qalıq yanacaqların qeyri-davamlı istifadəsinin həlli ilə bağlı fikir ayrılıqları və ənənəvi yanacaq istehlakları dövriyyələri davam etdirilir. Aİ kömür, neft və qazın azaldılmasını və qlobal istifadəsini mərhələli şəkildə dayandırmaq üçün sövdələşməyə təklif etsə də, özü nüvə sənayesində, digər karbon emissiyalarını artıran sənaye konqlomeratlar şəbəkələrində fəallığını davam etdirir.Təkcə Fransa atom stansiyaları ilə ən ağır nüvə sənayesi texnologiyalarından yararlanır. Eləcə də, Norveç və digər ölkələrin ətraf mühitlə bağlı öhdəlikləri qapı arxasında qalıb, istixana qazı emissiyalarını azaltmaqdan imtina edən bəzi Amerika ölkələri, xüsusilə də Argentina ümumiyyətlə COP prinsiplərinə zidd addımlar atmaqdadır. Hazırda dünyada neft istehsalına görə, liderə çevrilən və gündəlik karbohidrogen istehsalını və emalını 35 milyon barelə çatdıran ABŞ üçün də sıçrayışlı neft-qaz sənayesini qısaltmaq sərfəli deyil. Həmçinin, başqa iri enerji istehsalçılarının da "fossil fuel transition" ("qalıq yanacaq keçidi") prinsiplərindən tam uzaqlaşması inandırıcı təsir bağışlamır. Ona görə də, ənənəvi yanacaq sənayesinin qorunmasına yönəlik bu baxışlar, qlobal iqlim maliyyəsi institutunun formalaşması üçün bir sıra manеələr yaradır.

### Karbon emissiyasında ən az paya malik olan və ən böyük təşəbbüskar...

Digər məsələ ondadır ki "yaşıl sənaye" quruculuğu isə hədsiz dərəcədə böyük maliyyə tələb edir, buna trilyon dollarla vəsait lazımdır. Bu baxımdan, son illərdə sənaye sektorları zəifləyən, iqtisadi artım templəri aşağı düşən Avropa Birliyi ölkələri bu sahəyə böyükhəcmli investisiyaları yönəltmək üçün ehtiyat maliyyə resurslarını xərcləməyə xəsislik edir.

Yeri gəlmişkən, qlobal miqyasda karbon emissiya edən ölkələrlə müqayisədə Azərbaycanın payı hədsiz dərəcədə çox azdır. Ölkəmizin dünya üzrə karbon-dioksid emissiyasında payı cəmi 0,13 faizdir. Dünyada ətraf mühitə zərər vuran ölkələr sırasında ən aşağı yerlərdən birini tutan Azərbaycan buna baxmayaraq, qlobal iqlim çağırışlarında ən fəal iştirak edən, təşəbbüslər irəli sürən, öz iradəli addımları ilə diqqəti cəlb edən dövlətdir. Bu nisbət kifayət qədər kiçik olsa da, qlobal çağırışlardan geri qalmayaraq karbonsuzlaşdırma strategiyalarının inkişaf etdirmək niyyətindədir. Həmçinin "yaşıl keçid"in əsas iştirakçılarından biri olan ölkəmiz "yaşıl layihələr" ə investisiyaları təşviq etmək üçün beynəlxalq birlik qarşısında 2040-cı ilədək emissiyaları 40 faiz azaltmaq öhdəliyi götürüb.

Ona görə də qlobal çağırışlara müsbət töhfə vermək üçün karbonsuzlaşdırma strategiyalarının inkişaf etdirilməsi əsas ssenarilərdən biri kimi uzunmüddətli baxışı əks etdirir.

Ona görə də, Paris Sazişinin və UNFCCC-nin əsas təməl prinsiplərini icra etmək, planetin gələcək ekoloji fəlakətinin qarşısını almaq üçün ilk yerdə dayanan ölkələr daha ciddi proqramlar həyata keçirməli, ekoloji sərmayələrdə əsas donorluğu üzərinə götürməlidir.

Ancaq bütün bunlara baxmayaraq, COP29 sammitində dünya ölkələrinin yeni maliyyə iqlimi ailəsini və yeni coğrafiya maliyyə arxitekturası formalaşdırmağı bacardı. Sammitdə Avropanın bir çox ölkəsi də daxil olmaqla qitə ölkələrinin karbonsuzlaşdırma, 2030-cu ilə qədər qlobal bərpaolunan enerji potensialının üç dəfə artırılması, təbiətin qorunması və artırılması, karbon tullantılarının qorunması və emissiyaların üçdə birini təşkil edən qida sistemlərinin transformasiyası istiqamətində hərəkətləri sürətləndirmək barədə razılığa gəlməsi və yekun bəyannamələr imzalaması məsuliyyətli iqlim alyansının formalaşmasını təsdiqləyir.



### Bakı sammiti yeni iqlim maliyyəsi ailəsini formalaşdırdı

Ən mühüm nailiyyət isə COP29-da İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun (İMFF) yaradılması barədə yekdil razılıq da əldə edilib. İnkişaf etməkdə olan ölkələrdə iqlim maliyyələşməsinin mühüm sütunu olan "İqlim Dəyişmələri üzrə İtki və Zərər Fondu"na vəsait ayrılması təmin olunub. Yaxın günlərdə İMFF bərpaolunan enerji sahəsində fəaliyyət göstərən kiçik və orta istehsalçılar üçün gələcək məhsulların satın alınması üzrə səsizə zəmanətlə yanaşı, "yaşıl" sənaye layihələri üçün ilkin kapital itkisinin kompensasiyasını da təmin edəcək.

Həmçinin, inkişaf etməkdə olan ölkələrin tələblərinə cavab verəcək ədalətli və ambisiyalı Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG) qəbul edilib və bu sənəd çoxtərəfli inkişaf banklarının resurs bazalarından istifadə etməsinə imkan yaradacaq. Nəticədə bu, iqlim hədəflərinə çatmaqda dayanıqlı maliyyə mexanizmlərinin formalaşmasında mühüm rol oynayacaq.

Maliyyələşmə siyasətinin davamı kimi donorlardan biri olan Dünya Bankı maliyyə töhfəsini 170 milyarda çatdırmağı öhdəsinə götürüb. Habelə COP29 çərçivəsində keçirilən İqlim məsələləri üzrə biznes, investisiya və xeyriyyəçilik platformasında (BIPCP) da dayanıqlı maliyyə infrastrukturlarının qurulması yönündə müsbət siqnallar verilib, biznes, maliyyə və xeyriyyə cəmiyyətlərinin liderləri, o cümlədən ümumi aktivləri 10 trilyon dollar olan investorlar özəl kapitalın iqlim bazarlarına yönləndirilməsi üçün ilk dəfə bir araya gələcəklərini bəyan edib. Asiya İnkişaf Bankı (AİB) buzlaqların əriməsi nəticəsində yaranan təsirlərlə mübarizə aparmaq üçün nəzərdə tutulmuş yeni proqrama 3,5 milyard dollar ayıracaq. İsveç hökuməti isə BMT-nin Yaşıl İqlim Fonduna 730 milyon dolları məbləğində ianə ayrılmasını rəsmiləşdirib. Həmçinin, tədbirin digər tərəfdaşları arasında Asiya Filantropiya Müəssisəsi Şəbəkəsi Bil və Melinda Qeyts Fondu, Beynəlxalq Maliyyə Korporasiyası, Qlobal İqlim Fəaliyyəti üzrə Mərakeş Tərəfdaşlığı, Dayanıqlı Bazarlar Təşəbbüsü, Dayanıqlı İnkişaf üzrə Dünya Biznes Şurası, Dünya İqtisadi Forumu və "XPRIZE" fondu da maliyyə donorluğunu üzərinə götürüb.

### Nüfuzlu bank və investorlardan Bakıya dəstək

Azərbaycanın digər uğuru dünya ölkələrinin maliyyə-xəzinə orqanlarını bir platformada konsensusa gətirmək bacarığıdır. COP29-da iştirak edən bir sıra ölkələrin maliyyə nazirliklərinin və beynəlxalq maliyyə qurumlarının rəhbərləri ilə ikitərəfli görüşlərdə də iqlim maliyyə portfelinin vəziyyəti əsas mövzulardan biri olub. Bu prosesdə COP ailəsinin maliyyə və investisiya qurumlarının rəhbərlərinin də üzərinə məsuliyyət düşdüyündən qarşılıqlı dialoqlar intensivləşib. Sloveniyanın maliyyə naziri Klemen Boştjançiç, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının maliyyə nazirinin müavini Lord Livermor və Misirin iqtisadi inkişaf və beynəlxalq əməkdaşlıq naziri Rania Əl-Məşət və Azərbaycanın maliyyə naziri Samir Şərifov arasında Bakıda keçirilən görüşlərdə iqlim büdcəsinin tərtibi, iqlim hədəflərinə çatmaq üçün maliyyələşmə istiqamətində həyata keçirilən tədbirlər diqqət mərkəzində olub və qarşılıqlı mübadiləyə dair razılaşmalar əldə edilib.

İqlim maliyyəsində bank və maliyyə institutlarının da donorluğu mühüm əhəmiyyət daşıyır. Bakıda Asiya İnfrastruktur İnvestisiya Bankının prezidenti Cin Liqun, Neft İxrac edən Ölkələr Təşkilatı (OPEC) Beynəlxalq İnkişaf Fondunun prezidenti Abdülhəmid Əlxəlifə və Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankının rəhbəri Hayaşi Nobumitsu ilə keçirilən görüşlərdə də maliyyələşmə ilə bağlı yekun niyyət razılaşmaları əldə olunub, beynəlxalq maliyyə qurumları ilə bu sahədə əməkdaşlığın yeni təməlləri qoyulub.

*ELBRUS CƏFƏRLİ*

# YAP Sədrinin müavini ICAPP Daimi Komitəsinin 42-ci iclasında iştirak edib










Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Kamboca Xalq Partiyasının (KXP) ev sahibliyi ilə bu ölkənin Pnompen şəhərində keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) 12-ci Baş Assambleyası çərçivəsində ICAPP Daimi Komitəsinin (DK) 42-ci iclasında iştirak edib.

Tədbirdə ICAPP-ın cari il ərzində fəaliyyətinə nəzər salınıb, Daimi Komitənin yeni üzvləri təqdim olunub və qurumun gələcək planlarına dair ətraflı fikir mübadiləsi aparılıb.

Əvvəlcə Kamboca Xalq Partiyasının Prezidenti və ICAPP-ın 12-ci Baş Assambleyasının fəxri prezidenti Hun Sen açılış nitqi ilə çıxış edib. O, ICAPP rəhbərliyinə və Daimi Komitənin üzvlərinə minnətdarlıq edərək qarşılıqlı səmərəli əməkdaşlığın davam etdirilməsinin önəmini vurğulayıb.

Daha sonra ICAPP Daimi Komitəsinin sədr müavini və Kamboca Xalq Partiyasının Əbədi əlaqələr komissiyasının sədr müavini Suos Yara ICAPP-ın 12-ci Baş Assambleyasına hazırlıq işləri barədə məlumat verib. Eyni zamanda, Assambleyanın Büro üzvlüyünə namizədlərin siyahısına baxılıb.

İclasda, həmçinin ICAPP-ın BRICS vasitəsilə müxtəlif ölkələrlə, o cümlədən müxtəlif siyasi partiyalarla əməkdaşlıq məsələləri nəzərdən keçirilib. ICAPP-ın YUNESKO ilə əməkdaşlığının genişləndirilməsi imkanları barədə də təkliflər səsləndirilib.

Həmin gün Kamboca Xalq Partiyasının Prezidenti və ICAPP-ın 12-ci Baş Assambleyasının fəxri prezidenti Hun Sen adından Assambleyanın iştirakçıları üçün rəsmi ziyafət təşkil olunub.

# COP-un Su Strategiyası

## Bakı Bəyannaməsi dünya ölkələrini dayanıqlı su ehtiyatlarının yaradılmasında fəaliyyətini birləşdirəcək

COP29-da müzakirə olunan başlıca məsələlərdən biri də su və iqlimə uyğunlaşma mövzuları olub. Qlobal iqlim ailəsinin gündəmində ən prinsipial qərarlar da məhz planetin gələcək su təminatı ilə bağlı təşəbbüslərə söykənir.

BMT-nin Qlobal Müqaviləsinin baş direktorunun su mandatı üzrə rəhbəri Ceyson Morrison bildirib ki, qlobal iqlim dəyişikliyinin ən çox təsir etdiyi sahələrdən biri su ehtiyatları ilə bağlıdır. Hazırda dünya ölkələri üçün su və iqlim dəyişikliyi anlayışı eyni qlobal mahiyyət daşıyır və hər bir ölkəni mövcud su resurslarını qoruyub saxlamaq, habelə dayanqılı su ehtiyatları yaratmaq üçün təcili və təxirəsalınmaz addımlar atmağa məcbur edir. Bu baxımdan COP29 çərçivəsində qəbul edilən  Su ehtiyatlarının idarə olunmasına dair Bakı Bəyannaməsi gələcək üçün mühüm zəmin və inkişaf ruhu yaradacaq.

### Qlobal su çatışmazlığına qarşı birgə fəaliyyət planı

BMT-nin Su və İqlim Dəyişikliyi üzrə ekspert qrupunun nümayəndəsi Nikolas Frankenin sözlərinə görə, su qıtlığı və təhlükələri ilə bağlı konkret hədəflərə nail olmaq üçün COP ailəsinin hər bir üzvü bu qlobal problemə uyğunlaşmalı və vahid plan qəbul etməlidir. İqlim dəyişikliklərinin su resurslarına təsirlərini azaldılmaq üçün çıxış yolları tükənməyib, sadəcə Paris Sazişi çərçivəsində müəyyən edilən təşəbbüslərə çatmaq üçün inteqrasiyasının zəruriliyini dərk etmək lazımdır. Bu cəhətdən Bakı Bəyannaməsi ölkələri beynəlxalq konvensiyaların tələblərinə riayət edilməsində daha sıx əməkdaşlığa təşviqə edə bilər. Eyni zamanda, Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının qəbul etdiyi Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn meyarlara uyğun strateji proqrmalar hazırlamaq məsuliyyətin ortaya qoyur. Həmin öhdəliklərə əsasən, COP ölkələri 2028-2030-cu illərdə iqlim dəyişikliyinə qarşı mübarizə strategiyalarını hazırlamalıdır.

Sənəd həm də dünya ölkələrini su ehtiyatlarının idarə olunmasında qabaqcıl meyarları tətbiq eməkdə təcrübələri bölüşməyə imkan yaradır. Belə ki, qlobal su alyansı hidroekoloji böhranların innovativ texnologiyalar əsasında effektiv idarə olunması, alternativ su mənbələrindən istifadəni genişləndirməklə dayanıqlı və keyfiyyətli suya tələbatın ödənilməsi sahəsində öz startegiya və praktiki imkanlarını təqdim edə biləcək.




### Bəyannamə Azərbaycanın su strategiyasına tam uyğundur

Azərbaycan qeyd edilən prinsipləri nəzərə alaraq öz dövlət konsepsiyasını müəyyənləşdirib. Dövlət başçısının bir neçə ay əvvəl imzaladığı müvafiq sərəncama əsasən, "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"sənədi təsdiq edilib. Strategiya su ehtiyatlarının artırılması, keyfiyyətli içməli su və suvarma suyu ilə təminatın yaxşılaşdırılması, bu sahədə idarəetmənin müasirləşdirilməsi və  habelə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini nəzərdə tutur.

Bu baxımdan Bakı Bəyannaməsinin hədəf prinsipləri Azərbaycan üçün olduqca əlverişlidir və regiondakı su resurslarına çıxış üçün fürsət yarada bilər. Belə ki, Azərbaycan su ehtiyatlarının həcminə və çıxış imkanlarına görə, Cənubi Qafqazın digər ölkələri ilə müqayisədə ən aşağı yerdə dayanır. Bu regiondakı su ehtiyatının təxminən 15 faizinə ölkəmizin çıxışı var. Azərbaycanda ümumilikdə 8359 çay vardır. Bunların əksəriyyəti kiçik (uzunluğu 5 km-dən az) və azsuludur. Azərbaycan ərazisinin təxminən 75 faizi Kür çayı hövzəsinə daxildir. Çay suları ehtiyatlarının təxminən 70 faizi qonşu ölkələrin ərazisində, qalanı isə (yerli axım) daxili çaylardan formalaşır.

Araz və Kür çaylarının böyük bir hissəsi digər ölkələrin istehlakına yönəldiyindən çox az qismi Azərbaycana çatır. Eləcə də, digər regional çayların (Samur) da axınları zəifdir. Buna görə də, ölkəmiz adambaşına düşən su ehtiyatının həcminə görə, qonşu ölkələrlə müqayisədə xeyli geri qalır.

Ümumilikdə, ölkəmizdə bərpa olunan şirin su ehtiyatları 26,2 milyard kubmetr təşkil edir. Bunun 8,4 milyard kubmetri yeraltı sulardan, 4,6 milyard kubmetri yerli çay axınlarından və 13,2 milyard kubmetri transsərhəd yerüstü sulardan formalaşır. Bərpa olunan şirin su ehtiyatının 17,8 milyard kubmetri yerüstü şirin su ehtiyatlarından ibarətdir.

Ölkəmizdə su anbarlarının sayı isə təxminən 140 ədəddir. Onların ən böyükləri Kür çayı üzərindəki Mingəçevir, Şəmkir, Araz çayı üzərindəki Xudafərin və Araz, eləcə də Tərtər çayı üzərindəki Sərsəng  su anbarlarıdır. Su anbarlarının ümumi həcmi isə 24 milyard kubmetrə yaxındır. Su təchizatında rol oynayan göllərin sayı isə 700-ə yaxındır ki, onların təxminən 70 faizi yayda quruyur. Sahəsi 1 kvadratkilometrdən çox olan və böyük təsərrüfat əhəmiyyətli göllərin sayı cəmi 25-dir. Göllərin ümumi su ehtiyatı 0,9 milyard kubmetrə, şirinsulu göllərin ehtiyatı isə 0,03-0,05 milyard kubmetrə yaxındır.

### Alternativ su mənbələrinin tapılması yolları

Doğrudur, azad edilmiş ərazilərdəki mənbələrin  ümumi su ehtiyatlarına reinteqrasiyası su təminatının yaxşılaşdırılmasında mühüm rol oynayacaq. Qarabağ və Şərqi Zəngəzurun su ehtiyatlarının proqnozlaşdırılan həcmi təxminən 2,2 milyard kubmetrdir. Onların sırasında Sərsəng su anbarı Azərbaycanın ən bolsulu çaylarından olan Tərtərçayın üzərində yerləşməklə həmin iqtisadi rayonlarla yanaşı, ətraf bölgələrin də təminatı üçün zəngin resurs hesab edilir. 570 milyon kubmetrə qədər ehtiyatı olan bu su anbarı 100 min hektardan çox ərazinin suvarılmasına imkan verir. Ancaq bütün bu mənbələr dayanıqlı təminat üçün yetərli deyil. Ona görə də qarşıdakı onillikdə su resursları mənbələrinin dayanıqlığını təmin etmək üçün dünyadakı müxtəlif modelləri tətbiq etməyə ehtiyac var.

Ümumilikdə, Bakı Bəyannaməsinin mühüm üstünlüklərindən biri qlobal miqyasda kəskin xarakter alan su çatışmazlığının fəsadlarına qarşı əhatəli və kompleks tədbirlərin hazırlanması, alternativ su mənbələrinin emal yolu ilə içməli suya olan tələbatın ödənilməsi imkanlarının səfərbər olunması və  qarşıdakı onilliklər ərzində dayanıqlı su ehtiyatları fondunun yaradılmasının təmin edilməsidir.

***ELBRUS***

# Sülhə nə qaldı?

## Ermənistanda referendumdan öncə seçki baş tuta bilər

Ermənistan ilə Azərbaycan arasında sülhün əldə olunması region üçün yeni inkişaf mərhələsi vəd edir. Bunu rəsmi İrəvan da anlayır və bir sıra rəsmilərin dili ilə "sülh xahişləri" səsləndirirlər. Təsadüfi deyil ki, bir müddət öncə Ermənistanın XİN başçısı Ararat Mirzoyan sülh müqaviləsi ilə bağlı açıqlama vermiş və bildirmişdi ki, yaxın gələcəkdə qalan bir və ya iki bənd üzrə razılığa gələ biləcəyik və tam razılaşdırılmış sülh müqaviləsinə malik olacağıq. Bu isə onu göstərir ki, Ermənistan manipulyasiyalardan əl çəkməyi, real sülh prosesinə start verməyi qərarlaşdırır.

Təbii ki, burada bir sıra amillərin rolu var. Fransanın qlobal mühitdə ifşası, Makron hakimiyyətinin iflası, Bayden administrasiyasının seçkilərdəki məğlubiyyəti və bu kimi xarici amillər Ermənistanı sülh yoluna "gətirib". Artıq İrəvan anlayır ki, "qaçmağa yer yoxdur". Bu baxımdan da onlar ardıcıl sülh mesajları səsləndirirlər.

### Azərbaycanın dəyişməz şərtləri...

Sülhün əldə olunması üçün isə zəmin formalaşdırılmalıdır - burada, Azərbaycanın bir sıra dəyişməz tələbləri yerinə yetirilməlidir. Müzakirə edilən sülh şərtləri beynəlxalq hüquqa söykənməklə, mövcud həqiqətləri əks etdirməklə yanaşı, Ermənistanın özünü real dövlət olaraq təsdiqləməsi üçün yeni zəmin yaradır - təsadüfi deyil ki, Ermənistanın baş naziri Nikol Paşinyan sülhlə bağlı danışarkən bildirmişdi ki, bu, Ermənistanın bir dövlət kimi formalaşması istiqamətində mühüm addım olacaq.

Bunun üçün isə ən vacib şərt Ermənistanın uzun illərdir ki, davam edən əsassız iddialardan geri çəkilməsidir. İrəvan rəsmi şəkildə konstitusiyasında dəyişiklik etməklə sülh prosesinin ardıcıllığını təmin edə bilər. Bu, regionda gələcək kataklizmlərin yaranması ehtimalını aradan qaldırmaq üçün ən real yoldur. Əks halda, konstitusiya dəyişmədikcə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları bütün hallarda yeni eskalasiyalara səbəb ola bilər.

Eyni zamanda, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı bəyanatın səsləndirilməsi də İrəvan üçün ən mühüm şərtlərdən sayılır. Artıq tarixə qovuşmuş "münaqişə"nin tənzimlənməsində vasitəçi kimi çıxış etməli olan ATƏT-in Minsk qrupu özünün "missiyasını" başa vurub - "münaqişə" bitdiyi üçün bu qrupa da ehtiyac qalmayıb. Azərbaycanın özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə bu problemi həll etdi. Paralel olaraq məsələ beynəlxalq gündəlikdən də düşdü. Hazırda Ermənistan ilə Azərbaycan arasında gedən danışıqlar ikitərəfli təmas xarakteri daşımaqla münasibətlərin normallaşmasına hədəflənib. Beləliklə  də, məsələ iki dövlət arasında müzakirə edilməli, həlli tapılmalıdır...

### Paşinyan seçkiyə gedəcək...

Erməni mediası baş nazir Nikol Paşinyanın qısa zamanda sülhlə bağlı bəzi addımlar atacağını yazıb. "Nyus. am" "Hraparak"a istinadən yazıb ki, baş nazir konstitusiya dəyişiklikləri üçün referendum keçirməzdən əvvəl siyasi mövqeyini gücləndirmək məqsədilə erkən seçkilər keçirməyi planlaşdırır. Bu, Paşinyan üçün yenidən legitimlik qazanmaq, konstitusiya dəyişikliyi ilə bağlı qərarın ictimai rəydə qəbul olunmasına şərait yaratmaq baxımından olduqca vacibdir. Hazırki vəziyyətdə Ermənistanda siyasi mühit birmənalı deyil - xarici təsirlər altında olan qüvvələr, xüsusilə Fransanın mövcud hakimiyyətinin sözü ilə oturub-duran müxalifət, eyni zmanda kilsənin nəzarətindəki siyasi güclər konstitusiya dəyişikliyinə qarşı təzyiq yarada bilər - Paşinyan bunlardan xilas olmaq üçün erməni xalqından sülh mandatı əldə etmək niyyətindədir. Bunun üçün isə referendumdan öncə seçkilərin baş tutması lazımdır.



### Missiya gedir? - Qərb təzyiq göstərir

Paşinyanın növbəti qərarı isə Aİ-nin Ermənistandakı "missiyası" ilə bağlı olacaq. Qeyd edək ki, 2023-cü ilin fevralından etibarən Ermənistanda "müşahidə aparan" "durbinçi missiya"nın əsl işinin kəşfiyyat aparmaq olması ilə bağlı mütəmadi xəbərlər yayılıb. Hətta bir müddət öncə Fransanın hərbi qüvvələrinin yüksək rütbəli nümayəndələri də bu "missiyanın" adı altında şərti sərhəd xəttinə gəlmişdi. Bu isə haqlı narazılığa səbəb olmuşdu - Azərbaycan ictimaiyyəti bunu sülhdən yayınma cəhdi kimi dəyərləndirmişdi.

İndiki halda, yeni siyasi situasiyanın formalaşması Aİ "missiyası"nın da regionu tərk etməsinə yol aça bilər. Erməni mətbuatı qarşıdakı fevralda "xidməti dövrü" başa çatacaq missiyanın Ermənistanı tərk etmək ehtimalını yüksək hesab edib. "Nyus.am"ın yazdığına görə, Avropa İttifaqının səfiri Vasilis Maraqos hələlik yekun qərar olmadığını bildirsə də, böyük ehtimallar "missiya" Ermənistanı tərk edəcək. Səfir bildirib ki, məsələ Ermənistan hakimiyyəti ilə müzakirə mərhələsindədir. - Aİ səfiri bildirib. Ermənistan XİN-in isə gələn ilin fevralından sonrakı mərhələdə missiyanın öz işini davam etdirib-etdirməyəcəyi ilə bağlı Avropa İttifaqına rəsmi müraciət etməsi haqda məlumat yoxdur.

Qeyd edək "Hraparak" "missiya"nın fəaliyyətinə diqqət çəkərək bildirir ki, Ermənistanın siyasi rəhbərliyi Aİ nümayəndələrinin ölkəni tərk etməsini sükutla qarşılayacaq. Onların fikrincə, Azərbaycanın tələbi ilə Ermənistan Aİ missiyasından imtina edəcək. Qərb isə Aİ müşahidəçilərinə qalmaq və regional hadisələri izləməyə davam etmək üçün təzyiq göstərir- xüsusilə Fransa başa çatacaq müqavilənin müddətinin uzadılmasına israr edir. Onlar qarşıdakı dövrdə prosesi "diqqətdən qaçırmamaq" üçün Aİ missiyasının Ermənistanda qalmasını arzulayır.

### Ermənistan yenə də silahlandırılır...

Nəticə etibarı ilə, sülh prosesi özünün məntiqi nəticəsinə yaxınlaşır. Bununla belə Ermənistan özünün destruktiv addımlarından əl çəkmir. Belə ki, İrəvanın Hindistandan 78 ədəd ATAGS (Advanced Towed Artillery Gun System) artilleriya qurğusu almağı planlaşdırması ilə bağlı xəbərlər yayılıb. Xarici medianın yaydığı bu məlumata görə, qərar əvvəlki 60 ədədin uğurlu sınaqlarından sonra qəbul edilib.

Altı haubitsadan ibarət ilk partiya müxtəlif şəraitlərdə, o cümlədən yüksək dağlıq və düzənliklərdə dəqiqlik və etibarlılıq nümayiş etdirib. Yeni partiyanın erməni hərbçilərinin tələblərinə uyğunlaşdırılacağı və erməni dilində interfeys təmin ediləcəyi bildirilir. Qeyd edək ki, ATAGS haubitsası 155 mm çaplı və 52 kalibrli bir artilleriya sistemidir. Atış məsafəsi 48 km-ə qədərdir və yüksək dəqiqliklə tanınır.

Bu isə Ermənistanın dildə sülh, əməldə başqa niyyətdə olduğunu ortaya qoyur. Amma İrəvan unutmamalıdır ki, silahlanma Ermənistanın özü üçün ən böyük təhlükəni formalaşdırır...

***P.İSMAYILOV***

# YAP Sədərək rayon təşkilatı partiyanın yaranmasının 32-ci ildönümünü qeyd edib





Noyabrın 20-də Yeni Azərbaycan Partiyasının (YAP) Sədərək rayon təşkilatının Sədərək rayon Mədəniyyət Sarayında partiyanın yaranmasının 32-ci ildönümü qeyd olunub.

İştirakçılar əvvəlcə Heydərabad qəsəbəsində Ulu Öndər Heydər
Əliyevin əzəmətlə ucaldılmış büstü önünə gül düzərək əziz xatirəsini yad ediblər.

Tədbir sonra Sədərək Rayon Mədəniyyət Sarayında davam etmişdir. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda qəhrəmancasına həlak olan şəhidlərimizin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Sədərək rayon təşkilatının sədri Arif Qasımov partiyanın keçdiyi şərəfli yoldan danışaraq bildirib ki, bu gün biz Yeni Azərbaycan Partiyasının 32-ci ildönümünü qeyd edirik. Bu münasibətlə Yeni Azərbaycan Partiyasının bütün üzvlərini ürəkdən təbrik edirəm. O, partiyanın tarixindən danışaraq qeyd edib ki, Yeni Azərbaycan Partiyasının yaranmasından 32 il ötür, ötən dövr ərzində Yeni Azərbaycan Partiyası özünün proqramına, prinsipinə, amalına sadiq olduğunu bir daha sübut edərək, Azərbaycanı demokratik ölkəyə çevirmiş və müstəqilliyimizin möhkəmlənməsində inkişafında əzmlə mübarizə aparmışdır.

Yeni Azərbaycan Partiyası ağır şəraitdə, böyük təzyiqlər altında Naxçıvanda 1992-ci il noyabrın 21-də Ümummilli Liderimiz
Heydər Əliyevin sədrliyi ilə Azərbaycanın bütün regionlarından seçilmiş 550 nəfər nümayəndənin təmsil olunduğu Yeni Azərbaycan Partiyası təsis konfransı keçirilərək, Yeni Azərbaycan Partiyasının yarandığı elan edildi. Ümummilli Liderimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi.

Beləliklə, müstəqil Azərbaycanın tarixində öz üzərinə böyük məsuliyyət götürərək və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası meydana gəldi və Yeni Azərbaycan Partiyası xalqın xilasında tarixi missiyanı öz üzərinə götürdü. Bununla da özbaşınalıqdan rahatlıq tapmayan xalqımız nəhayət ki, azad nəfəs ala bildi. Partiya sədri qeyd etmişdir ki, Ümummilli Liderimiz Heydər Əliyev partiyanın II qurultayında onun yaranma səbəbini və tarixi missiyasını təhlil edərək demişdir: “Yeni Azərbaycan Partiyası o vaxtkı mövcud vəziyyətdə bütün Azərbaycan xalqının mənafeyinə xidmət etmək üçün və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələləri həll etməsi üçün zamanın tələblərinə uyğun olaraq yaranmış bir partiyadır”.

“Yeni Azərbaycan Partiyasına hər kəs öz könlü, vicdanı, qəlbi ilə gəlməlidir. Hamı bilsin ki, bu partiya saflıq, saf mənəviyyat üzərində qurulmuş bir partiyadır. Bu partiya Azərbaycanın tarixi köklərinə, milli-mənəvi dəyərlərinə söykənən, ümumbəşəri dəyərlərdən bəhrələnən ümumxalq partiyasıdır. Azərbaycanın bütün vətəndaşlarının partiyasıdır”.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ölkədə qısa müddət ərzində siyasi sabitlik, sosial-iqtisadi inkişaf bərqərar olundu. Ötən 32 il ərzində Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib, ölkəmizin beynəlxalq aləmdə mövqeyi gücləndi, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb, Azərbaycanı regionun lider dövlətinə çevirib. Ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsi əhalinin sosial şəraitinin yaxşılaşmasına səbəb olub.

Bu gün Azərbaycan güclü ölkəyə çevrilibdir. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. 32 il ərzində dinamik inkişaf edən Azərbaycanın qazandığı nailiyyətlərdə bütövlükdə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin və onun hər bir üzvünün özünəməxsus töhfələri vardır.

Bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi strategiya nəticəsində Azərbaycan qısa müddətdə yüksək nailiyyətlərə imza imza atdı. Iqtisadi inkişaf, hərbi güc, ən əsası da Ermənistan - Azərbaycan münaqişəsinin həllində ölkəmizin üstün mövqe əldə etməsi, nəhayət, Prezident, Müzəffər Ali Baş Komandan, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə qazanaraq tarixi ədalətin və ərazi bütövlüyünün bərpasına nail oldu.

Beləliklə, Azərbaycan Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu müstəqillik və tərəqqi yolunda əmin addımlarla irəliləyərək Zəfər zirvəsinə yüksəldi.

Partiya sədri qeyd edib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəfər mahiyyət etibarı ilə Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi və Prezident İlham Əliyevin təkminləşdirərək müasirləşdirdiyi milli dövlətçilik strategiyasının nəticəsidir.

Bu gün Azərbaycanın ərazi bütövlüyü Qarabağda, Şuşada qürurla dalğalanan bayrağımız, milli dövlətimiz, müstəqilliyimiz və suverenliyimiz dünya xalqları arasında öz layiqli yerimizi tutmaq naminə Yeni Azərbaycan Partiyası sədrinin apardığı 32 illik mübarizənin nəticəsidir.

Bundan sonra da Yeni Azərbaycan Partiyasının amalı Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarını yaşatmaq və həyata keçirməkdir. Partiyamızın bu yolu Azərbaycan Respublikasının müstəqil dövlətçiliyə gətirib çıxaran və xalqımızı xoşbəxt firavan həyata aparan yoldur. Bu yol Yeni Azərbaycan Partiyasının hər bir üzvü üçün müqəddəs və əbədi yoldur.

Tədbirdə Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər üzrə şöbə müdiri Pərviz Ağayev qeyd edib ki, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə təsis edilən Yeni Azərbaycan Partiyası müstəqil dövlətçiliyimizin və ümummilli maraqların təmin edilməsi naminə cəmiyyətimizin bütün təbəqələrinin qüvvəsini səfərbər edən konstruktiv müxalifət partiyası kimi yaradılıb. Azərbaycan xalqı 1993-cü ilin iyulunda - ölkə “olum və ya ölüm” dilemması qarşısında qaldıqda özünün taleyini dahi şəxsiyyət
Heydər Əliyevə həvalə etdi. Ulu Öndər xilaskarlıq missiyasını uğurla yerinə yetirdi, ölkəmizi, xalqımızı Milli Qurtuluş yoluna çıxardı. 1995-ci ilin parlament seçkiləri nəticəsində partiya xalqın böyük dəstəyini qazanaraq müstəqil dövlətçiliyin əsas təminatçısı olan siyasi qüvvəyə - iqtidar partiyasına çevrildi.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Mahir İsmayılov, partiya üzvləri Şövkət Sadiqova və Bulud Bağırlı çıxış ediblər.

Tədbir konsert proqramı ilə davam edib.

# Afrika xalqları Bakıda müstəmləkəçiliyə qarşı birləşir

## Azərbaycan neokolonializmdən əziyyət çəkən xalqlara dəstəyini artıracaq



Müstəmləkəçilik və ya kolonializm qəsbkar dövlətlərin müxtəlif xalqlara qarşı işğalçı siyasətinin təzahürüdür. Bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu Qərb ölkələri tərəfindən törədilib. Bu baxımdan, Fransa digərlərindən “öndə” gedir. Milyonlarla afrikalı da Qərb ölkələrinin müstəmləkə siyasətinin qurbanı olub.

Fundamental insan hüquqlarının tapdanması isə müasir dövr müstəmləkəçiliyinin ən ağır təzahürüdür. Təzad bundan ibarətdir ki, müstəmləkəçi Qərb ölkələri demokratiyanı və insan hüquqlarının qorunmasını özlərinin təməl prinsipləri kimi bəyan ediblər. Ancaq həmin ölkələr Afrikada, Yaxın Şərqdə, Latın Amerikasında neokolonializmi davam etdirməklə insan hüquq və azadlıqlarına, məhəl qoymurlar. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir.

Fransa əsarətində saxladığı ölkələrin suverenliyinin məhdudlaşması, yeraltı və yerüstü sərvətlərinin talanması ilə yanaşı, fundamental insan hüquqlarının tapdanmasını ən ağır təzahürlər kimi adiləşdirib, özünün dövlət siyasətinə çevirib. Neçə illərdir ki, Mayot adasının sahibi olan Qəmər Adaları İttifaqı Fransanın müstəmləkə hakimiyyəti altında boğulur, bir çox ölkələr, o cümlədən, Qoşulamama Hərəkatı İttifaqın Mayot adası üzərində suverenliyini dəstəkləyən sərt bəyanatlar verib. Fransanın nəzarətində olan 190 min nəfər əhaliyə malik bu adanın suverenliyi Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən tanınıb. Fransa isə beynəlxalq hüquqa hörmət qoymayaraq müstəmləkəçilik siyasətindən əl çəkmir, Mayot Adasının suverenliyini boğur, irtica siyasətini davam etdirir. Belə faktların sayını kifayət qədər artırmaq mümkündür.

Azərbaycan bu problemlə bağlı prinsipial mövqe nümayiş etdirir və Fransa kimi ölkələrin müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Yeri gəlmişkən, Bakıda COP29 çərçivəsində müstəmləkəçiliyə və neokolonializmə qarşı tədbirlər keçirilib. Tədbirlərdə Fransa kimi ölkələrin müstəmləkə siyasətindən əziyyət çəkən xalqların nümayəndələrinə haqq səslərini ucaltmaq imkanı yaradılıb.

Qeyd edək ki, Afrika ölkələrinin nümayəndələri də Bakıda yeni müstəmləkəçilik təzahürlərini və onun qarşısının alınması üçün birgə tədbirləri, əməkdaşlıq layihələrinin həyata keçirilməsini, həmçinin metropoliyaların müstəmləkə siyasəti nəticəsində ətraf mühitə və insan sağlamlığına dəymiş ziyanı müzakirə ediblər. Bu məsələlər Bakı Təşəbbüs Qrupunun nümayəndələri ilə görüşdə müzakirə olunub.

Görüşdə Mali, Toqo, Cibuti, Nigeriya, Kenya, Konqo Demokratik Respublikası və Mavritaniyadan olan deputatlar, qeyri-hökumət təşkilatlarının rəhbərləri, siyasətçilər, ekoaktivistlər və hüquq müdafiəçiləri iştirak ediblər. “Paix & Lait” (Cibuti) təşkilatının sosial inkişaf üzrə mütəxəssisi Əbdülsəməd Səid Arrenin sözlərinə görə, müstəmləkə irsi müstəqillik əldə etdikdən sonra da bu ölkələrin inkişafına təsir göstərməyə davam edir: “Biz ədalət və bərabərliyə əsaslanan sosial tərəqqi üzərində işləməliyik”. “Biz ekologiyaya və gələcəyimizə ziyan vurmaqla istismar edilməyə davam edən təbii sərvətlərimizi qorumaq üçün səylərimizi birləşdirməliyik. Beynəlxalq korporasiyaların real məsuliyyətə cəlb edilməsinin vaxtı çatıb”. Bu fikirləri isə müstəmləkəçilikdən zərər çəkmiş Konqo Demokratik Respublikasının Ətraf Mühitin və Qorunan Ərazilərin Müdafiəsi Cəbhəsinin proqram direktoru Makelele Kauçu Alen Bisimva bildirib.

İnkişaf və Ağacların Qorunması və Bərpası naminə Təşkilatın (ASRAD) meneceri Fatumata Djire deyib ki, Azərbaycanın COP29-da neokolonializm mövzusunu da diqqətdən kənarda qoymaması təqdirə layiqdir. Onun sözlərinə görə, COP29 iqlim dəyişikliyinə həsr olunsa da, tədbirdə neokolonializm mövzusunu qaldırmaq hər dövlətin bacardığı iş deyildi: “Azərbaycanı COP29 təşkilatçılığına görə təbrik edirəm. BTQ bizə çox dəstək oldu. Azərbaycanın Qoşulmama hərəkatına sədrliyini də alqışlayıram. Bir dövlətin başqa dövlətin suverenliyi üçün bu cür can atması təqdirə layiqdir”.

Bütövlükdə, Azərbaycanın bu istiqamətdəki fəaliyyəti müstəmləkəçilikdən əziyyət çəkmiş xalqlar tərəfindən təqdir olunur. Bakı Təşəbbüs Qrupu neokolonializm siyasətindən əziyyət çəkən xalqlara dəstəyini daha da artıracaq.

*Nardar BAYRAMLI*

# Azərbaycan və Türkiyə Hərbi Dəniz Qüvvələrinin birgə təlimi

## Marmarisdə keçirilən “SAT-SAS-2024” hərbi təlimi noyabrın 29-dək davam edəcək

Azərbaycan dost və tərəfdaş ölkələrlə davamlı olaraq birgə hərbi təlimlər keçirir. İki qardaş dövlət olan Azərbaycanla Türkiyənin hərbi qüvvələrinin birgə hərbi təlimləri isə artıq ənənə halını alıb. Buna nümunə kimi iki ölkənin “Mustafa Kamal Atatürk”, “Anadolu Qartalı”, “Sarsılmaz Qardaşlıq” adlı birgə hərbi təlimləri göstərmək olar. Eləcə də Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlılarının “Üç qardaş” hərbi təlimləri də xüsusi vurğulanmalıdır.



Qeyd edək ki, 2024-cü ilin hazırlıq planına əsasən, Azərbaycan və Türkiyə respublikalarının Hərbi Dəniz Qüvvələrinin (HDQ) sualtı hücum və sualtı müdafiə bölmələri ilə qardaş ölkədə “SAT-SAS-2024” birgə təlimi keçirilir. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Türkiyənin Marmaris şəhərinin Aksaz dəniz bazasında keçirilən birgə təlimdə dəniz xüsusi təyinatlıları hədəf gəmilərinin zəbt edilməsi üzrə tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirib.

Təlimin növbəti günlərində plana əsasən, hər iki ölkənin xüsusi təyinatlı bölmələri quru və dəniz döyüş taktikalarının işlənməsi, helikopterdən enmə üsullarının yerinə yetirilməsi, şərti sahil ərazisinin zəbt edilməsi, partlamamış döyüş sursatlarının və dəniz minalarının axtarışı, eləcə də məhv edilməsi üzrə tapşırıqları icra edəcəklər. Birgə təlim noyabrın 29-dək davam edəcək.

Ümumiyyətlə, hazırda dünyada artan münaqişələr, qlobal təhdidlər belə hərbi təlimlərin davamlı olaraq keçirilməsini zəruri edir. Nəzərə alaq ki, bugünlərdə Türkiyəyə məxsus və Panama bayrağı altında üzən yük gəmisinə Yəmənin “Ənsar Allah” üsyançı hərəkatından olan husilər hücum ediblər. Bununla bağlı Türkiyənin Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib ki, “Anadolu S” gəmisi noyabrın 20-də Yəmən sularında hərəkətdə olduğu zaman husilər tərəfindən raket hücumuna məruz qalıb. Nazirlik bənzər hadisənin təkrar meydana gəlməməsi üçün zəruri tədbirlərin görüldüyünü bəyan edib. Bu hadisə göstərir ki, ölkələrimiz belə təhdidlərdən sığortalanmayıb. Ona görə də, iki qardaş ölkə arasında hərbi dəniz qüvvələrinin birgə hərbi təlimləri aktualdır.

Məsələ ilə bağlı qəzetimizə açıqlamasında hərbi ekspert Emin Həsənli bildirib ki, mütəmadi olaraq hərbi təlimlərin keçirilməsi dövlətlərarası razılaşmalara əsasən reallaşdırılır. Azərbaycanın ən çox birgə hərbi təlim keçirdiyi ölkə isə dost və qardaş Türkiyədir. Onun sözlərinə görə, Azərbaycan dövlətinin bu istiqamətdə sərgilədiyi mövqe beynəlxalq hüquqa və dövlətlərarası imzalanmış sənədlərə əsaslanır: “Azərbaycan ilə Türkiyə bu gün əsl müttəfiqlik nümunəsi ortaya qoyur. Müttəfiqliyin ən mühüm istiqamətlərindən biri olan hərbi əməkdaşlıq iki qardaş ölkənin Silahlı Qüvvələrinin yeni situasiyada birgə fəaliyyəti üçün də perspektivlər vəd edir. Nəzərə alaq ki, “Şuşa Bəyannaməsi”ndə hər iki ölkənin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edilməsi xüsusi vurğulanır. O cümlədən sənəddə Azərbaycanla Türkiyənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin davam etdirilməsi bildirilir. Bütün bunlar isə yeni dönəmdə Azərbaycan-Türkiyə müttəfiqliyinin əsas komponentləri sırasındadır”.

Hərbi ekspert qeyd edib ki, Azərbaycanla Türkiyə arasında birgə hərbi təlimlərin keçirilməsi hərbi əməkdaşlığın mühüm elementlərindən biridir. Bütün sahələrdə olduğu kimi, hərbi sahədə də hər iki dövlətin əməkdaşlığı yüksələn xətlə davam edir. Yeni bu istiqamətdə siyasi iradə ortadadır. Bunun nəticəsində Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə hərbi təlimləri ilbəil artırılır. Onun sözlərinə görə, hazırda Türkiyədə davam edən “SAT-SAS-2024” birgə təlimi də bu baxımdan önəmlidir. Bu hərbi təlim heç bir ölkəyə qarşı yönəlməyib, sadəcə iki qardaş ölkənin əməkdaşlığı çərçivəsində həyata keçirilir.

“Əslində, düşünürəm ki, bu hərbi təlimlər sülh və təhlükəsizlik naminədir, onun bütün region üçün faydası var. Çünki Azərbaycanla Türkiyə hər zaman bölgədə sülh və əməkdaşlıq təşəbbüsləri ilə çıxış edir. Məşhur bir deyim var ki, “təlimdə nə qədər tər töksən, döyüşdə bir o qədər az qan axıdarsan”. Türkiyə ordusu NATO-nun ikinci güclü ordusudur. Azərbaycan Ordusunun belə bir güclü, müasir tələblərə cavab verən ordu ilə əməkdaşlığı, birgə təlimləri davam edəcək”,- deyə E.Həsənli vurğulayıb.

*Nardar BAYRAMLI*

# “Şəffaflıqda gender”...

## COP29 çərçivəsində növbəti tədbir baş tutdu

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti üzrə hazırlanmışdır**

Ötən gün COP29 çərçivəsində “Şəffaflıqda gender” mövzusunda yüksəksəviyyəli tədbir keçirilib. Tədbir COP29 Sədrliyi və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) tərəfindən təşkil edilib.

Yüksəksəviyyəli tədbirdə iştirakçılar iqlim siyasətində gender aspektlərinin inteqrasiyası, gender bərabərliyinin təşviqi və bu sahədə qarşıya çıxan çağırışları müzakirə ediblər. Tədbirdə iqlim dəyişikliyinə qarşı mübarizədə gender əsaslı yanaşmaların tətbiqinin vacibliyi bir daha vurğulanıb.

**Qadınlar bu problemlərin həllində ön cəbhədədir...**

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un Prezidenti Muxtar Babayev bildirib ki, gender bərabərliyi təkcə fundamental insan hüququ deyil, həm də səmərəli və ədalətli iqlim fəaliyyətinin əsasını təşkil edir: “İqlim dəyişikliyinin təsirləri mövcud bərabərsizlikləri, xüsusən də gender əsaslı bərabərsizlikləri daha da dərinləşdirir. Qadınlar və qızlar xüsusilə həssas qruplardır və iqlim dəyişikliklərinə qarşı mübarizədə əsas rol oynayırlar”.

Nazir qeyd edib ki, bir-biri ilə əlaqəli iqlim və biomüxtəliflik böhranları milyonlarla insanı yoxsulluğa sürükləyə və ərzaq təhlükəsizliyinə səbəb ola bilər: “Qadınlar və qızlar bu problemlərin həll yollarının ön cəbhəsindədirlər, iqlim çağırışlarının həllində davamlılıq, innovasiya və liderlik nümayiş etdirirlər. Bu, qadınların rolunu təkcə iqlim fəalları kimi deyil, həm də cəmiyyətimizin ürəyi, analarımız, bacılarımız və qızlarımız kimi tanımağı və qiymətləndirməyi həyati əhəmiyyətli edir. Onların səsləri və töhfələri icmalarımızın təməlini formalaşdırır və davamlı gələcək üçün baxışımızın mərkəzində olmalıdır”.

**Kənd təsərrüfatında çalışanların 49 faizi qadınlardır**

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, COP29 Təşkilat Komitəsinin üzvü Bahar Muradova bildirib ki, Azərbaycanda əmək qabiliyyətli əhalinin 48 faizi kənd təsərrüfatında çalışır ki, bunların 49 faizi qadınlar, 51 faizi isə kişilərdir. O, qeyd edib ki, xüsusilə qadınlar üçün kənd




təsərrüfatında çalışanları dəstəkləmək və həssas gender tədbirləri həyata keçirmək milli prioritetlərdən biridir.

B.Muradovanın sözlərinə görə, ölkədə yaşıl kənd təsərrüfatını dəstəkləmək üçün 2020-2023-cü illəri əhatə edən Birgə Fəaliyyət Planı icra edilib: “Bu plan mənfi ekoloji təsirləri azaltmaq məqsədini daşıyan çoxölçülü tədbirlərdən ibarətdir. Gender bərabərliyini COP29 çərçivəsində iqlim siyasətinin əsas prinsipi etmək öhdəliyimizi təsdiqləyirik.

İnanıram ki, istisnasız olaraq bütün ölkələr BTR (İkiillik Şəffaflıq Hesabatları) və NDC (Milli Müəyyən Edilmiş Töhfələr) hazırlanması və həyata keçirilməsi prosesində gender bərabərliyinə dair milli platformalar yaratmalıdır. Bu, qadınlar və qızlar, həmçinin digər həssas qruplara iqlim tədbirlərinə təsir göstərmək və layihələrin icrasına nəzarət etmək imkanı verəcək. İqlim maliyyələşdirilməsində gender-həssas modellərin tətbiqi iqlim tədbirlərində gender bərabərliyini dəstəkləyəcək”.

**2050-ci ilə qədər 236 milyon qadın...**

BMT-nin Qadınlar Agentliyinin qadınların səlahiyyətləndirilməsi üzrə sədri Semima Njuki bildirib ki, 2050-ci ilə qədər 236 milyon qadın və azyaşlı qız qida çatışmazlığı ilə üzləşəcək. 158 milyon qadının isə yoxsullaşacağı gözlənilir.

C.Njuki iqlim dəyişikliyinin qadınlara və azyaşlı qızlara qarşı zorakılıq hallarını artırdığını bildirib. BMT nümayəndəsi ailələrin aclıq çəkdiyini, qida ehtiyaclarının artdığını vurğulayıb, bununla əlaqədar olaraq erkən və məcburi nikahların artdığını, qadınların və qızların daha çox qida təhlükəsizliyi ilə qarşı-qarşıya qaldığını qeyd edib.

O, iqlim maliyyələşməsi ilə bağlı müzakirələr zamanı, bu maliyyənin miqdarı ilə yanaşı, keyfiyyətinə də diqqət yetirilməsinin vacib olduğunu vurğulayıb. C.Njuki iqlim maliyyələşməsinin gender bərabərliyini nəzərə alaraq yerinə yetirilməli olduğunu bildirib: “Hazırda adaptasiya sahəsində yalnız 4 faiz, mitiqasiya sahəsində isə yalnız 2 faiz maliyyə gender bərabərliyinə yönəldilir. 2022-ci ildə 600 milyard dollar maliyyənin yalnız 20 milyard dolları gender bərabərliyinə ayrılıb”.

C.Njuki iqlim dəyişikliklərinin qadınlar və azyaşlı qızlar üzərində fərqli təsir yaratdığını nəzərə alaraq, bu qeyri-bərabərlikləri aradan qaldırmaq üçün maliyyə istiqamətinin dəyişməli olduğunu bildirib. O, həmçinin maliyyənin yerli təşkilatlara, qadınlara, yerli xalqlara, feminist hərəkatlara, gənclər təşkilatlarına və gənclər tərəfindən idarə olunan təşkilatlara yönəldilməsinin vacibliyini vurğulayıb.

*Yeganə BAYRAMOVA*

# Turizm Bəyannaməsi və yol xəritəsi

## COP29 çərçivəsində dünya turizm ailəsini bir araya gətirəcək vahid siyasət və hədəf prinsipləri müəyyənləşib

COP29 çərçivəsində keçirilən Turizm Günündə “Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə Nazirlərin Birinci Görüşü”nün yekunu olaraq  Bəyannamə elan edilib. 50-dən çox ölkə və 8 qeyri-dövlət sektorunun təmsilçilərinin qoşulduğu




“Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə COP29 Bəyannaməsi” qlobal iqlim çağırışlarının turizm sənayesi üçün qarşıya qoyduğu hədəf və prinsipləri nəzərdə tutur. Tədbirdə çıxış edən COP29-un Prezidenti Muxtar Babayev çıxışında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası tarixində ilk dəfə keçirilən tarixi tematik “Turizm Günü”nün turizmin qlobal iqlim gündəliyinə inteqrasiyası, Paris Sazişi və Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğunlaşdırılması istiqamətində mühüm addım olduğunu qeyd edib. Bildirib ki, turizm iqlim fəaliyyətində əhəmiyyətli rol oynaya biləcək potensiala malikdir və dayanıqlı təcrübələrin tətbiqi və innovativ texnologiyalardan istifadə etməklə turizmdə səmərəli dekarbonizasiya model yaratmaq olar.

**Bəyannamə turizm sektorunda iqlim tədbirlərini təşviq edir**

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev isə turizm sektorunun iqlim dəyişikliyindəki roluna toxunaraq COP29-da qəbul olunan Bəyannamənin növbəti COP tədbirləri üçün fəaliyyət çərçivəsi müəyyən etməyə imkan yaradacğına və sənədə tərəf çıxan ölkələrin sayının artacağına inamını ifadə edib. Bəyannamə turizm sektorunda iqlim tədbirlərinin sürətləndirilməsində təxirəsalınmaz addımlar atmağa, tərəfləri emissiyaları azaltmaqda əcrübələrini tətbiq etməyə təşviq edən yekdil konsepsiya sənədi ola bilər.

BMT Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili hesab edir ki, turizm dünyada iqtisadi inkişafın mühüm atributu olduğundan bu sahədə aktivlik və sənaye texnologiyalarının tətbiqi sürətlə artır. Hazırda bu sektorun qlobal ÜDM-də payı hər il yüksəlir və turuzm dünya iqtisadiyatına ildə ən azı 3,4 faiz töhfə verir.  İmkanlar isə daha böyükdür və turizm sənayesi nəhəng bir sektor kimi texnologiyalar, ətraf mühitlə sıx inteqrasiyadadır, bu isə hazırda bəşəriyyətin üzləşdiyi iqlim böhranlarının qarşısının alınmasında turizmin də üzərinə böyük məsuliyyət qoyur. Bu baxımdam turizm BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Fəaliyyət Proqramına daxil edilib və bütün dövlətlər üçün öhdəliklər müəyyənləşib. COP29 sammitində təşkil edilən müzakirə və iclaslar turizm ailəsinin bu məsuliyyətini daha da yaxından anlamağa və vahid bir koalisiyada birləşərək həll yolları tapmaqda mühüm platforma oldu.

Zurab Pololikaşvilinin fikrincə, Bakı Bəyannaməsi turizm sektorunun həmrəylik sənədi olmaqla yanaşı, turizmin inkişafında və iqtisadi artımda mühüm töhfəverici rol oynaya bilər.

**Karbon emissiyaların 6,5 faizi turizmdə cəmləşir**

COP29 çərçivəsində digər beynəlxalq səviyyəli turizm müzakirələri Dövlət Turizm Agentliyinin dəstəyi ilə Dünya Səyahət və Turizm Şurası tərəfindən təşkil edilib. Tədbirdə “Səyahət və turizm üzrə net sıfır yol xəritəsi”nin ikinci nəşrinin təqdimatı da keçirilib ki, bu sənəd turizmin davamlı və dayanıqlı inkişafında vacib məsələlərdən biri olan iqlim həlləri ilə bağlı prioritetləri əks etdirir. Dünya Səyahət və Turizm Şurasının prezidenti və baş icraçı direktoru Culia Simpson bildirib ki, yenilənmiş yol xəritəsi planetar səciyyə daşımaqla, müasir iqlim reallıqları fonunda turizm fəaliyyətinin yeni mühitə uyğunlaşmasını müəyyən edir. Bu sənəd 2021-ci ildə Qlazqo şəhərində keçirilən COP26-da çərçivəsində təqdim olunmuş ilk yol xəritəsinin təkmilləşdirilmiş dekarbonizasiya variantıdır və turizm sektorunun 2050-ci ilə qədər “net sıfır” məqsədinə çatmasında baxış və prinsiplərini əks etdirir.

Dövlət Turizm Agentliyinin dəstəyi ilə bu nəşrdə qlobal miqyasda turizm xəritəsi əsaslı şəkildə təhlil edilib və həmin sahə barədə ümumi qənaət formalaşıb. Təhlillərə əsasən, dünyanın ən aparıcı 250 turizm şirkətinin yarısından çoxu, təxminən 53 faizinin strategiyada müəyyənləşmiş iqlim hədəfləri üzrə fəaliyyətləri nəzərdən keçirilib. Ümumilikdə, bu strateji konsepsiya turizm sektorunun qarşısında iqlim həlləri ilə bağlı bir çox vəzifənin durduğunu ehtiva edir.

Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Qasımovun fikrincə, yeni hesabat nəşri aviasiyadan hotelçiliyə qədər turizmlə birbaşa və dolayısı ilə əlaqəli olan sahələrdə emissiyaların azaldılması üzrə istiqamətləri və vəzifələri müəyyən edir.

Hesabatda son üç il ərzində qlobal turizm sənayesi üzrə iqlim hədəflərinin müəyyənləşdirilməsində 27 artımın müşahidə olunduğu və onların yarıdan çoxunun emissiyaların azaldılması öhdəliyinə fəal şəkildə sadiq qaldığını da ortaya çıxarıb. Dünya Səyahət və Turizm Şurasının “Ətraf mühit və sosial araşdırmalar sənədi”nə əsasən, 2023-cü ildə səyahət və turizm sahəsi qlobal emissiyaların 6,5 faizini təşkil edib. Bu, 2019-cu ildəki ən yüksək (7,8 faiz) göstəriciyə nisbətən 1,3 faiz-bənd azalması deməkdir. Həmçinin, turizm sektorunda qeydə alınan istixana qazlarının intensivlik göstəricisi 10,2 faiz azalıb. Həmçinin, 2023-cü ildə aviasiya sektoru üzrə karbon intensivliyi 2019-cu illə müqayisədə 6 faiz, kruiz səyahətləri və hotelçilik sənayelərinin hər biri üzrə 11 faiz azalma qeydə alınıb.

**Azərbaycanın “yaşıl turizm” hədəfləri**

Bütün bunlara rəğmən, aparılan araşdırmalar təsdiq edir ki, turizm sənayesində ekoloji mühit prinsipləri tam gözlənilmir, “yaşıl mühit” tələblərinin pozulması halları bəzi regionlarda azalsa da, digərlərində artır.

Bu baxımdan Bakıda təsdiq edilən yeni yol xəritəsi biznesləri karbon emissiyasının azaldılması strategiyaları üzrə hədəfləri qəbul etməyə, turizm və səyahət şirkətlərini, dövlətləri və digər maraqlı tərəfləri bu istiqamətdə tədbirləri dəstəkləməyə və səyahətçiləri daha məsuliyyətli olmağa təşviq edəcək.

Beynəlxalq “yaşıl turizm” ailəsinin üzvü olan Azərbaycan üçün də turizm sektorunda de-karbonizasiya siyasəti mühüm əhəmiyyət kəsb edir. Ölkəmizdə müəyyən edilmiş ətraf mühit prinsiplərinə əsasən, səyahət və turizm sənayesinin ətraf mühitin tarazlığı və yerli icmaların rifahına təsirlərinin azaldılması ilə bağlı konsepsiya sənədi hazırlanıb. “Yaşıl turizm” baxışlarına uyğun olaraq, təbii və mədəni mühitin qorunmasına, yerli iqtisadiyyatlara töhfə verən və turizm fəaliyyətinin sosial və ətraf mühitə təsirlərini minimuma endirən alətlərdən istifadə olunacaq. Bu məqsədlə təbii ehtiyatların qorunması, ətraf mühiti çirkləndirən sənaye texnologiyalarının təkmilləşdirilməsi, biomüxtəlifliyin qorunması üçün yaşıl parkların salınması, yanacaq emissiyalarını azaldan texnoinfrastrukturların qurulması nəzərdə tutulur.

Beləliklə, Azərbaycanın COP29-a sədrliyi çərçivəsində turizmin beynəlxalq iqlim müzakirələrinə daxil edilməsi ölkəmizin bu istiqamətdə də yaşıl təşəbbüskarlığının nümunəsi olmaqla, qlobal turizm sənayesi üçün yeni baxış və fikirlərin təqdimatı baxımından mühüm əhəmiyyət kəsb etdiyini göstərir. Dünya turizm ailəsinin ambisiyalı üzvlərinin bir araya gələrək turizm sahəsində dayanıqlılıq təcrübələrini bölüşməsi, milli strategiyalarda əks olunmuş əsas prinsiplərin vahid bir siyasət çərçivəsində əlaqələndirilməsi  turizmlə bağlı qlobal iqlim məqsədlərinə çatmaqda əhəmiyyətli platformadır.

*E.CƏFƏRLİ*

# Dördüncü veto...

Ötən il oktyabrın 7-dən başlayan növbəti İsrail-Fələstin qarşıdurmasının lokal və qısamüddətli olacağı barədə ehtimallar özünü doğrultmadı. Qarşıdurma artıq yaxın coğrafiyalara da sirayət edərək uzanan müharibəyə çevrilib. Yaxın Şərqi qan gölünə döndərən, miqyasına görə çox böyük humanitar fəlakətə səbəb olan müharibənin nə vaxt sonuclanacağını isə proqnoz etmək çətindir.

Qarşıdurmanın lokal səviyyədən çıxmasının və daha da şiddətlənməsinin ən mühüm səbəblərindən biri isə kənar güclərin əslində müharibənin gizli tərəfləri qismində çıxış etmələridir. Belə güclər hər iki tərəfdə var və onlar yanan odu söndürmək əvəzinə, onun üstünə yağ tökməklə müharibəni körükləyirlər. İş o yerə çatıb ki, hətta BMT-nin də adekvat addımlar atmasına imkan verilmir. Son bir il ərzində qurum bir neçə dəfə atəşkəs təşəbbüsündən çıxış etsə də, indiyədək buna nail olunmayıb.

## ABŞ-nin atdığı növbəti pozucu addım

Bu günlərdə BMT Təhlükəsizlik Şurasında  Qəzzada dərhal atəşkəs tələb edən yeni qətnamə layihəsi müzakirələrə çıxarılıb. Lakin Amerika Birləşmiş Ştatları (ABŞ) sözügedən sənədə artıq dördüncü dəfə veto qoyub və bununla da növbəti pozucu addımını atıb..

Verilən məlumata görə, 15 üzvdən ibarət BMT Təhlükəsizlik Şurasının 10 seçilmiş üzvü - Əlcəzair, Ekvador, Qayana, Malta, Mozambik, Cənubi Koreya, Sierra Leone, Sloveniya və İsveçrənin təqdim etdiyi qətnamə layihəsi səsverməyə çıxarılıb. Sənəddə Qəzzada dərhal atəşkəs, məhbusların azad edilməsi və humanitar böhranın qarşısının alınması tələb olunub. ABŞ qətnamə layihəsinə veto qoyub, digər 14 üzv ölkə qanun layihəsinin lehinə səs verib.

ABŞ-nin BMT-dəki daimi nümayəndəsinin müavini Robert Vud səsvermədən sonrakı açıqlamasında bildirib ki, israilli əsirlər azad edilmədən ABŞ qeyd-şərtsiz atəşkəs tələbini dəstəkləməyəcək. Vud qeyd edib ki, qətnamə layihəsi qəbul olunsa, HƏMAS-ın danışıqlar masasına oturması üçün heç bir təşəbbüsü olmayacaq. O, HƏMAS-ın indiyə qədər bir çox razılaşma təklifini rədd etdiyini vurğulayıb. Vud layihədə HƏMAS-ın 2023-cü ilin 7 oktyabr hücumunun pislənilməməsini də tənqid edib.

BMT Baş katibinin rəsmi nümayəndəsi Stefan Düjarrik Qəzza zolağında atəşkəsin dayandırılmasını tələb edən qətnaməyə ABŞ-nin vetosunu şərh edib. “Düşünürəm ki, bu, Təhlükəsizlik Şurasının üzvləri arasında müşahidə etdiyimiz konsensus çatışmazlığının və açıq desək, Qəzza ilə bağlı əvvəlki qətnamələrin icra səviyyəsinin aşağı olmasının daha bir nümunəsidir”, - deyə Düjarrik vurğulayıb.

Düjarrikin sözlərinə görə, Baş katib öz tərəfindən Qəzzada müharibənin başa çatması, bütün girovların şərtsiz azad olunması və iki dövlətli həllin həyata keçirilməsi üçün bütün səyləri dəstəkləməyə davam edəcək.

Xatırladaq ki, bundan əvvəl ABŞ BMT Təhlükəsizlik Şurasında veto hüququndan istifadə edərək Qəzza zolağında atəşkəs və girovların azad edilməsini tələb edən qətnamə layihəsini bloklayıb. Birləşmiş Ştatlar, həmçinin Fələstinin BMT-yə tam hüquqlu üzv kimi qəbul edilməsinə qarşı çıxıb.

Beləliklə, BMT Təhlükəsizlik Şurasının üzvləri arasında yenə də konsensus çatışmazlığı yaranıb və nəticədə sənədi qəbul etmək mümkün olmayıb. Necə deyərlər, dünyanın səyləri dördüncü dəfə nəticəsiz qalıb. Bu, əslində BMT-nin strukturunun yenilənməsi ilə bağlı son illərdə Azərbaycan və Türkiyə liderlərinin dəfələrlə səsləndirdikləri fikirlərin nə qədər doğru olduğunu bir daha təsdiqləyir. BMT dünya nizamına cavabdeh olan bir qurumdur və burada bütün dünyanın təmsilçiliyi təmin olunmalıdır. Bu günün reallığı və çağırışları ondan ibarətdir ki, BMT-də doqmalar, ehkamlar mütləq qaydada aradan qaldırlmalıdır. BMT səviyyəsində qərarların verilməsinə seçilmiş dövlətlərin təsir imkanları saxlanıldıqca dünyada ədalətsizlik, beynəlxalq hüququn işləməməsi, selektiv yanaşma meylləri daha da artacaq.

## Qəzzada yaşanan insanlıq faciəsi

Ötən ilin oktyabrında anklavda müharibə başlayandan indiyədək Qəzza zolağında 43 min 800-dən çox fələstinli həlak olub. Bu barədə Fələstinin Səhiyyə Nazirliyi teleqramda bildirib. Sitat: “İsrailin Qəzzada həyata keçirdiyi əməliyyatlar nəticəsində ölənlərin sayı 2023-cü ilin oktyabrından bugünədək 43 min 846 nəfərə yüksəlib, daha 103 740 nəfər yaralanıb”.

Davam edən müharibə hər gün canlar alır. Bundan ən çox əziyyət çəkənlər isə uşaqlar, qadınlar və qocalardır. İndiyədək Qəzza zolağında hərbi əməliyyatlar nəticəsində azı 17 min 492 uşaq həlak olub. Verilən məlumatlarda vurğulanır ki, 35 mindən artıq azyaşlı valideynlərindən birini və ya hər ikisini itirib, 3500-ə yaxını isə qida çatışmazlığından əziyyət çəkir. Böyük bir ərazidə insanlar ev-eşiklərini tərk etmək və qaçqın düşərgələrinə sığınmaq məcburiyyətində qalıblar. Ancaq burada da qəfil ölüm onların başı üstündədir. Belə ki, qaçqın düşərgələri də tez-tez amansız hücumlara məruz qalır və heç kəsə rəhm edilmir.

Müharibə elə bir dəhşətli fazaya daxil olub ki, hətta tibb işçilərinin də sahədə yaralılara yardım göstərmələrinə imkan verilmir. BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi İdarəsinin  hesabatında bildirilir ki, 2023-cü ilin oktyabr ayından bəri səhiyyə müəssisələrinə 136 hücum olub. Bu hücumlar nəticəsində yüzlərlə tibb işçisi həyatını itirib, xəstəxanalar dağılıb, hətta yaralıları daşımaq üçün təcili tibbi yardım maşınları da yoxdur.

Daha bir acınacaqlı reallıq ondan ibarətdir ki, müharibənin getdiyi ərazilərdə həmçinin BMT missiyalarının üzvləri də atəşə məruz qalırlar. Bu günlərdə BMT-nin Livandakı Müvəqqəti Qüvvələrinin (UNIFIL) Ramya sərhəd bölgəsində yerləşən postu atəşə tutulub, nəticədə Qanadan olan dörd hərbçi yaralanıb. Bu barədə UNIFIL-in mətbuat xidmətinin teleqram kanalında yaydığı açıqlamada bildirilir. “Ayrı-ayrı qeyri-hökumət qrupları tərəfindən buraxıldığı ehtimal edilən raket Ramya kəndindən şərqdə yerləşən UNP 5-42 bazasına düşüb, növbədə olan Qanadan dörd sülhməramlı yaralanıb. Yaralıların üçü Tir şəhərindəki hospitala müalicə üçün çatdırılıb”, - deyə məlumatda vurğulanıb.

Bildirilib ki, daha beş raket UNIFIL-in qərbi Livanın cənubunda yerləşən Şamaa qəsəbəsindəki texniki xidmət mərkəzinə atılıb. Açıqlamada bildirlir ki, emalatxanaya ciddi ziyan dəysə də, sülhməramlılardan xəsarət alan olmayıb. Təşkilatın məlumatına görə, üçüncü hadisə Xirbət-Silm kəndinin şimal-şərqindəki magistral yolda baş verib. Burada silahlı şəxs “mavi dəbilqə” patruluna atəş açıb, lakin sülhməramlılar arasında xəsarət alan olmayıb.

## İkibaşlı oyun oynayan ABŞ dünyanı hara sürükləyir?

İsraillə Fələstin arasında yaşanan növbəti qarşıdurma beynəlxalq təşkilatların, böyük dövlətlərin uzun illər ərzində problemin həllinə adekvat yanaşmamasının acı nəticəsidir. Ortada regionda iki dövlətin yaradılması ilə bağlı qərar olsa da, onun həyata keçirilməsi onilliklər ərzində təxirə salınıb. Buna əsas səbəb isə ayrı-ayrı qlobal güc mərkəzlərinin iddialı yanaşmaları, özlərinin maraqlarından geri çəkilmək istəməmələri olub. Bəhs olunan güc mərkəzləri,ələlxüsus da ABŞ əslində regionu maraqlarının təmin olunması uğrunda qanlı mübarizə poliqonuna çevirib. Biz şahidiyik ki, bir sıra hallarda Amerika Birləşmiş Ştatlarının təhriki ilə BMT-nin qərarları çox çevik şəkildə icra olunur, dünyanın ayrı-ayrı bölgələrində sərt tənzimləmə mexanizmləri işə salınır. Ancaq eyni yanaşmanı İsrail-Fələstin probleminin həllinə münasibətdə görmürük. Halbuki Vaşinqtonun atəşi dayandırmaq, münaqişənin sülh yolu ilə tənzimlənməsinə töhfə vermək imkanları çoxdur. Ancaq bu imkanlardan istifadə olunmur.




C.Bayden administrasiyası yalnız sözdə sülhdən, atəşkəsdən danışır, reallıqda isə İsrailə hərtərəfli dəstək verir, o cümlədən bu ölkəyə öldürücü silahlar göndərir.

Yeri gəlmişkən, son olaraq ABŞ Konqresinin Senatı Birləşmiş Ştatlardan İsrailə hücum silahlarının təchizatını bloklamağı tələb edən qətnamələri təsdiqləməyib. ABŞ-nin qanunverici orqanının yuxarı palatasındakı səsvermənin yayımını çərşənbə günü C-SPAN televiziyası aparıb. Üç qətnamənin əleyhinə 100 senatorun 60-dan çoxu səs verib, yalnız 17 qanunverici qətnamələrin lehinə çıxış edib. Beləliklə, qanunverici orqanının yuxarı palatasındakı səsvermənin hələ davam etməsinə baxmayaraq, sənədlər qəbul edilməyəcək. Bu isə o anlama gəlir ki, Petaqonun Yaxın Şərqdə gedən müharibənin tərəflərindən birinə silah tədarükünün qarşısında yenə də “yaşıl işıq” yanır. Ortada silah tədarükü olduğu halda,  C.Bayden administrasiyasının təmsilçilərinin “sülhə töhfə vermək niyyətində olduqlarını” bəyan etmələrinin məntiqi əsla başa düşülmür. Belə ikibaşlı oyun oynamaqla ABŞ dünyanı hara sürükləyir və dünya buna nə qədər dözəcək?

*Mübariz FEYİZLİ*

# III Dünya müharibəsinin astanasında...

## Bayden əlindəki son fürsətdən istifadə edir

**NATO çətin vəziyyətdə**

**Hakimiyyətinin son günlərini yaşayan Bayden administrasiyası həm ölkəsinin imicinə, həm müttəfiqlərinə, həm də bütövlükdə bəşəriyyətə qarşı təhlükəli mövqe almaqdadır. Ekspertlərin də vurğuladıqları kimi, ötən 4 ildə qlobal qarşıdurmaya nail ola bilməyən ABŞ-ın hazırki administrasiyasının verdiyi qərarlar qarşıdakı 2 ay ərzində vəziyyətin idarəolunmaz hala gətirilməsinə hədəflənib. Bir neçə gün öncə Co Baydenin Ukraynanın Rusiya ərazisinə uzaqmənzilli raketlərdən istifadə etməklə zərbə endirməsinə icazə verməsi münaqişəni daha fərqli müstəvilərə daşıyır. Xatırladaq ki, bu hücumlarda istifadə edilən ATACMS raketlərinin uçuş məsafəsi 190 mil və ya 305 km-dir. Rusiya tərəfi isə Ukraynanın ABŞ-ın verdiyi uzaqmənzilli raketlərlə Bryansk vilayətinə zərbələr endirdiyini bildirib.**

### Ukrayna hücum edir, Bayden silah tədarükünü artırır...

Ukrayna-Rusiya cəbhəsində isə gərginlik get-gedə artmaqdadır. Son xəbərlərə görə, Ukrayna orsdusu Kursk vilayətində tarixi knyaz Baryatinski malikanəsinə zərbələr endirib. Bu barədə "Shot" Teleqram kanalı məlumat yayıb. Məlumata görə, malikanəyə HİMARS vasitəsilə 11 raket və aviabomba atılıb. Zərbələr nəticəsində xəsarət alan olmayıb. Yalnız 5 minik avtomobili yararsız vəziyyətə düşüb. Malikanənin binaları ziyan görməyib.

Bu arada ABŞ Ukraynaya 275 milyon dollar dəyərində yeni hərbi yardım paketi təqdim edib. Qərb mediası xəbər verir ki, Ukrayna bu hərbi yardım paketi vasitəsilə Yüksək Hərəkətli Artilleriya Raket Sistemləri (HIMARS), 155 mm və 105 mm çaplı artilleriya silahları üçün sursatlar, 60 mm və 81 mm kalibrli minaatan mərmilər, Pilotsuz Təyyarə Sistemləri (PUA), optik istiqamətləndirici və naqillə idarə olunan TOW raketləri, Cirit və AT-4 tank əleyhinə sistemlər, atıcı silahlar və döyüş sursatları, partlayıcı maddələr, Kimyəvi, Bioloji, Radioloji və Nüvə (KBRN) Müdafiə Avadanlığı, ehtiyat hissələri, xidmətlər və təlim üçün avadanlıqlar və nəqliyyat əldə edəcək. Beləliklə. ABŞ Ukrayna-Rusiya müharibəsinin təxminən son fazası üzərindən yeni dünya müharibəsi başlatmaq niyyətindədir. Çünki döyüşlərin indiki mərhələsində artıq ABŞ deyil, Avropa məkanı təhlükə altına düşməkdədir.

### Rusiyanın cavabı gecikmədi...

Zelinskinin "qələbə planı" adlandırdığı "strateji xətt" artıq Avropanı çətin vəziyyətə salıb. ABŞ-ın ardından bir sıra Avropa dövlətlərinin də Ukraynaya Rusiyanın dərinliklərinə zərbələr endirilməsi ilə bağlı yaşıl işıq yandırması Kreml tərəfindən cavabsız buraxılmayacağı güman edilirdi. Rəsmi Moskvanın baş verənlərə cavabı gecikməyib - Rusiya Prezidenti Vladimir Putin yenilənmiş nüvə doktrinasının - "Nüvə silahının tətbiqinin qarşısının alınması sahəsində dövlət siyasətinin əsaslarının təsdiq edilməsi haqqında" fərman imzalayıb. Kreml bəyan edib ki, Avropanın mövqeyi NATO ölkələrinin müharibədə birbaşa iştirak etməsi anlamına gələcək, Rusiya adekvat reaksiya verəcək. Rusiya Federasiyası Şurasının Beynəlxalq Əlaqələr Komitəsi sədrinin birinci müavini Vladimir Cabarov isə bunu Üçüncü Dünya müharibəsinə səbəb olacaq addım kimi qiymətləndirib.

Yeni nüvə doktrinasının qəbulu isə bir çox mətləblərdən xəbər verir. Sənəddə bildirilir ki, potensial düşmənin Rusiya və ya müttəfiqlərinə qarşı təcavüzündən qorunmanın təmin edilməsi ölkənin ən yüksək dövlət prioritetlərindən biridir. Başqa sözlə, Moskva hər hansı bir təhlükə hiss etdiyi zaman özünümüdafiə instinktini işə salmağa hazırdır.



### Səfirliklər bağlanır, tərəflər raket tədarükü ilə məşğuldur

"Raket müharibəsi" ərəfəsində isə bir çox dövlətlər özlərinin Ukraynadakı diplomatik korpuslarını bağlayır. ABŞ-ın Kiyevdəki səfirliyi noyabrın 20-də potensial ciddi hava hücumu ilə bağlı konkret məlumat alıb. ABŞ-ın Kiyevdəki səfirliyi məlumat yayıb. "Ehtiyat tədbiri olaraq, səfirlik bağlanacaq və əməkdaşlara yerində sığınacaq tapşırılacaq.

Səfirlik ABŞ vətəndaşlarına hava hücumu xəbərdarlığı zamanı dərhal sığınmağa hazır olmağı tövsiyə edib. ABŞ-dan sonra İspaniya ilə Yunanıstanın da Kiyevdəki səfirlikləri təhlükəsizlik təhdidlərini nəzərə alaraq, fəaliyyətlərini dayandırdıqlarını bəyan ediblər.

Azərbaycanın Ukraynadakı səfirliyi də bu ölkədə yaşayan vətəndaşlarımıza çağırış edib. Bir neçə gün öncə səfirlik bununla bağlı müraciət yayıb. Müraciətdə bildirilir ki, təhlükəsizlik risklərinin artması ilə bağlı yayılmış məlumatları nəzərə alaraq 21-22 noyabr tarixlərində konsulluq qəbulu aparılmayacaq. "Səfirlik Ukraynada daimi və müvəqqəti yaşayan Azərbaycan vətəndaşlarına müvafiq təhlükəsizlik tədbirlərinin görülməsi və yerli dövlət orqanlarının bütün tövsiyələrinə əməl olunması, hava həyəcanı siqnalına riayət olunmaqla sığınacaqlara keçmələrini bir daha xahiş edir".

Vəziyyətin gərginliyi isə bütün detalları ilə ortadadır. Ukraynanın Qərb raketləri ilə hücuma başladığı andan etibarən Rusiya Ukraynaya kütləvi hücumlar təşkil etmək üçün raket ehtiyatı toplayıb. Milli Təhlükəsizlik və Müdafiə Şurası yanında Dezinformasiyaya Qarşı Mübarizə Mərkəzinin rəhbəri Andrey Kovalenko belə deyib. O bildirib ki, söhbət müxtəlif növ ballistik və qanadlı raketlərdən gedir. "Ruslar bir neçə aydır ki, Ukraynaya kütləvi hücumlar üçün raket ehtiyatı toplayırlar. Buraya istehsalına davam etdikləri "Kh-101", həmçinin müxtəlif ölçülü kalibrlər, hipersəs və kruiz raketləri daxildir. Rusiya aerodromlarındakı aviasiya və dənizdəki gəmilər hücuma hazırdır", - deyə o qeyd edib.

### İraqda və Yuqoslaviyada istifadə edilən strateji silahlar...

Rusiyalı hərbi ekspertlər ATACMS raket sistemlərinin yüksək dəqiqlikli strateji silahlara aid olduğunu bildirir. Onların fikrincə, bu raketlərin hərbi hədəflərə və milli iqtisadi obyektlərə qarşı istifadəsi həyatı iflic edə bilər. Yanğın, partlayış, kimyəvi, radiasiya və digər potensial təhlükəli obyektlərin məhv edilməsi isə planet miqyasında ekoloji fəlakətlərə gətirib çıxaracaq. Bu səbəbdən Rusiya üçün yüksək dəqiqlikli strateji silahların tətbiqi, hətta onun sərəncamında olan bütün növ silahlardan cavab istifadəsi istisna olunmur. Ekspertlər Baydenin qərarının nüvə müharibəsi təhlükəsi yaratdığından əmindirlər: "Strateji dəqiqlikli silahlardan



İraqdakı ABŞ Ordusu və Yuqoslaviyadakı NATO Ordusu cavab verə bilməyən düşmənə qarşı istifadə edib. Seçkidə uduzan Bayden isə ən azı informasiya müharibəsində Ağ Evi qalib kimi tərk etməyə çalışır. Amma o, məsuliyyətsiz qərarlar və açıqlamalar verir".

### Bayden Ottava konvensiyasını pozur - Ukrayna mina tədarük edəcək

Bu arada ABŞ Prezidenti Co Bayden Ukraynaya piyada əleyhinə minaların tədarükünə razılıq verib. Bununla bağlı, "The Washington Post"a adı açıqlanmayan iki ABŞ rəsmisi məlumat verib. Rəsmilərdən biri minalardan istifadənin yalnız Ukrayna ərazisi ilə məhdudlaşacağını bildirib. Onlar Baydenin qərarını rus qoşunlarının irəliləməsi və Ukraynanın müdafiəsini gücləndirməsi zərurəti ilə əlaqələndiriblər.

Amma Baydenin bu qərarı beynəlxalq konvensiyalara ziddir - BMT-nin Ottava Konvensiyasına əsasən, piyada əleyhinə minaların istifadəsi və ya ehtiyatının yığılması qadağandır. Piyada əleyhinə minalardan istənilən istifadə konvensiya ilə yolverilməz sayılır. Ukrayna bu sazişi 1999-cu ildə imzalayıb və 2005-ci ildə ratifikasiya edib. Konvensiyaya görə, onu təsdiq edən ölkə, iştirak etdiyi silahlı münaqişə bitənə qədər müqavilədən çıxa bilməz. Buna baxmayaraq, hüquq müdafiəçiləri qeyd ediblər ki, Kiyev hələ də bu tip silahlardan, o cümlədən PFM ("ləçəklər") piyada əleyhinə minalardan istifadə edir. Ukrayna bu faktı təkzib etsə də, BMT Kiyevin konvensiyanı pozduğunu bəyan edib.

Qeyd edək ki, müqavilə dünyanın əksər ölkələri tərəfindən imzalanıb, lakin Rusiya və ABŞ konvensiyanın tərəfləri deyil.

ABŞ rəsmiləri 2014-cü ildə prezident Barak Obamanın dövründə müqavilənin şərtlərini böyük ölçüdə qəbul edərək, piyada əleyhinə minaların alınmasını dayandırıb və onların Koreya yarımadasından kənarda istifadəsini qadağan edib. Rusiya isə Ukraynanı Donbassdakı mülki hədəfləri minalamaq üçün Lepestok minalarından istifadə etməkdə ittiham edib. Moskva bu barədə BMT-yə materiallar göndərib.

### Həyəcan artır...

Dünən səhər saatlarında isə Ukraynada MiQ-31K uçuşu ilə əlaqədar hava hücumu xəbərdarlığı elan edilib. Daha sonra şərqdən Dneprə doğru hərəkət edən yüksək sürətli hədəf haqqında məlumat verilib. Bundan əlavə, Rusiya hərbçiləri Tu-95 strateji bombardmançı təyyarəsini havaya qaldırıb. Səhər saat 5:47-də Ukrayna Silahlı Qüvvələrinin Hərbi Hava Qüvvələri Engels ərazisindən X-101 raketlərinin buraxılması barədə məlumat yayıb.

Kiyev, Odessa, Dnepropetrovsk və Donetsk vilayətlərində "Ukrainenerqo" istiqamətində fövqəladə vəziyyətə uyğun olaraq elektrik enerjisi kəsilib. Çernivtsi, Poltava və Dnepropetrovsk vilayətlərində də fövqəladə hal kimi enerji verilişi dayandırılıb. Dnepropetrovsk vilayətinin dövlət administrasiyasının məlumatına görə, Dneprdə baş verən hücum nəticəsində sənaye müəssisəsinə ziyan dəyib. Həmçinin şəhərdə iki yanğın baş verib.

Yayılan məlumatlara görə, NATO ölkələri vəziyyətin daha da gərginləşəcəyindən narahatdır. Polşa Hərbi Hava Qüvvələrinə məxsus F-16 qırıcıları və NATO təyyarələri Rusiyanın raket hücumuna cavab olaraq havaya qaldırılıb. Bununla bağlı Ukrayna Silahlı Qüvvələrinin operativ komandanlığı məlumat yayıb. Döyüş təyyarələri səmaya qaldırılıb, yerüstü hava hücumundan müdafiə və radar kəşfiyyat sistemləri maksimum hazır vəziyyətə gətirilib.

### Hər kəs III Dünya müharibəsindən danışır...

Vurğulandığı kimi, Bayden administrasiyası özünün qarşıdakı iki aylıq hakimiyyəti dövründə III Dünya müharibəsinin potensial startını verməkdədir. Bununla bağlı, dəfələrlə SOS siqnalları səslənsə də, özünümüdafiə sistemləri gücləndirilsə də, indiki kimi gərgin vəziyyət yaranmamışdı - göründüyü kimi, Bayden hakimiyyəti artıq tarana gedir.

Dünya isə narahatdır. Yeni dünya müharibəsinin strateji əsasları bütün dövlətlər üçün təhlükə yaradır. ABŞ xüsusilə özünün müttəfiqlərini çətin vəziyyətə salır. Okeanın digər tayından "hücum razılığı" ilə yeni müharibəyə start verənlər hadisələrin baş verdiyi coğrafiyadakı dövlətləri və xalqları hədəf halına gətirir. Bu, hazırki ABŞ administrasiyasının demək olar ki, ikinci planıdır - Avropadakı müharibəni NATO ölkələri aparacağı halda ən qısa zamanda Uzaq Şərqdə də gərginlik pik həddə çata bilər. Amma Bayden unudur ki, onun tələm-tələsik müharibə planı ilk növbədə təmsil etdiyi ölkə üçün təhlükə formalaşdırır...

### Türkiyədən növbəti sülh çağırışı...

Bu arada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən G20 liderlərinin sammitindən qayıdarkən təyyarədə jurnalistlərin suallarını cavablandırıb. Türkiyə mətbuatının yazdığına görə, Ərdoğan Baydenin Kiyevə hücum əmri verməsini, raket icazəsinə yaşıl işıq yandırmasını doğru qərar saymayıb. Prezident Ərdoğan bildirib ki, Türkiyə bu qərarı doğru hesab etmədiyi kimi, həm də dəstəkləmir: "Müharibənin başlandığı andan qarşıdurmanın çox silahlandırma, çox qan və göz yaşı ilə deyil, əksinə, çox sülh səyləri, xoş niyyət və diplomatik səylə bitirmək imkanlarına inanırıq. Müharibəni alovlandırmaq, onun davam etməsini və hətta yayılmasını təşviq etmək istiqamətində addımı isə Co Bayden atıb. Baydenin bu addımı qarşıdurmanı daha da qızışdırmaqla yanaşı, Rusiyanın daha böyük bir reaksiya verməsinə səbəb olacaq. Prezident Putin də ölkəsinin ballistik raket hücumlarına məruz qalması halında nüvə silahı ilə cavab verilməsinə imkan tanıyan doktrinanı təsdiqləyib. Bütün bunlar bölgəni və dünyanı yeni və böyük bir müharibənin astanasına gətirə bilər".

Ukrayna və Rusiyanı təhriklərə uymadan sakitliyini qoruyaraq sülhə yönəlmələrini gözlədiyini bildirən Prezident Ərdoğan bu böyük səhvin yaratdığı mühitdə ediləcək ən kiçik yanlışlığın, təhriklərə uymaların barıt çəlləyinə alov atmaqdan fərqsiz olacağını diqqətə çatdırıb. O, hər kəsə diqqətli davranmağı tövsiyə edib.

### Ərdoğan Tramp haqqında danışdı: Müharibələri dayandırmaq strategiyası...

Prezident Ərdoğan yeni seçilmiş ABŞ Prezidenti Donald Trampın müharibələri bitirmək strategiyasına da münasibət bildirib. O qeyd edib ki, bu haqda danışmaq hələ tezdir: "Çox diqqətli və həssas olmalıyıq. Prezident seçilən Donald Tramp hər nə qədər müharibələri dayandıracağını desə də, yeni dövrlə bağlı indidən şərh vermək hələ tezdir. Tramp dövründə Amerika Birləşmiş Ştatlarının Orta Şərqə olan yanaşmasının necə olacağını yeni prezident vəzifəyə başladıqda görəcəyik. Biz yeni dövrdə də Türkiyə-ABŞ əlaqələrini ölkəmizin maraqları çərçivəsində inkişaf etdirmək üçün səylər göstərəcəyik".

Ərdoğan bildirib ki, Türkiyə Trampın kabinetində kimlərin yer aldığını və yanaşma tərzlərini analiz edir və hazırlıqları buna uyğun şəkildə aparır. "Bizim üçün insanların hakimiyyətə gəlmədən əvvəl nələr dediyi və düşündüyü əhəmiyyətlidir. Ancaq əsas məsələ hakimiyyət məsuliyyətini üzərlərinə götürdükdən sonra etdikləridir. Konkret addımlara görə hərəkət edir, bütün ehtimallara görə tədbirlərimizi görürük. Biz Trampın müharibələri dayandırma söyləminə inanmaq istəyir və bu yöndə addımlar atmasını gözləyirik. Müharibələri dayandırma yanaşması ilə hərəkət edən ABŞ bölgəmizdəki münaqişələrin sülh yolu ilə həlli üçün yeni bir mühit yarada bilər. Bu da bizim ən təbii haqqımızdır. Ümid edirik ki, müsbət gözləntilərimiz istiqamətində inkişaflara şahid olacaq və problemlərimizi bir-bir ortadan qaldıracağıq", - deyə Ərdoğan vurğulayıb.

***P.İSMAYILOV***

# Gürcüstanın Baş naziri kim olacaq?



Gürcüstanın hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyası oktyabrın 26-da keçirilən parlament seçkilərindən sonra formalaşacaq yeni hökumətin başçısının adını açıqlayıb. Hakim partiya hazırkı Baş nazir İrakli Kobaxidzenin yenidən Gürcüstanın Baş naziri vəzifəsinə namizədliyini irəli sürüb.

AZƏRTAC xəbər verir ki, bu barədə "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının icraçı katibi Mamuka Mdinaradze siyasi şuranın bugünkü iclasından sonra keçirdiyi brifinqdə məlumat verib.

O bildirib ki, partiyanın siyasi şurasının qərarına əsasən, Baş nazir vəzifəsinə namizəd yenə İrakli Kobaxidze olacaq. Parlamentin sədri vəzifəsinə isə yenidən Şalva Papuaşvilinin namizədliyi irəli sürüləcək.

# Özbəkistanda 2025-ci il "yaşıl iqtisadiyyat ili" elan olunub

Özbəkistanda 2025-ci il "Ətraf mühitin mühafizəsi və yaşıl iqtisadiyyat ili" elan edilib.

AZƏRTAC "UzDaily.uz" informasiya portalına istinadla xəbər verir ki, bunu Özbəkistan Prezidenti Şavkat Mirziyoyev parlamentin aşağı palatasında çıxışı zamanı deyib. O qeyd edib ki, bu gün iqlim dəyişikliyinin mənfi nəticələri təkcə Özbəkistanda deyil, dünyanın bir çox ölkələrində hiss olunur.

Portal xatırladır ki, müasir ekoloji çağırışlara cavab olaraq üç il əvvəl Özbəkistan ümummilli "Yaşıl məkan" təşəbbüsünü irəli sürüb, həmçinin qonşu ölkələrlə birlikdə regional iqlim strategiyasını həyata keçirməyə başlayıb. Özbəkistan Prezidenti 2025-ci ili "Ətraf mühitin mühafizəsi və yaşıl iqtisadiyyat ili" elan etməklə bu fəaliyyəti yeni səviyyəyə qaldırmağı qarşıya qoyub.



Hökumət müəyyən edilmiş əsas vəzifələrin həyata keçirilməsinə yönəlmiş dövlət proqramı hazırlayacaq.

# Berlin Parisi bloklayır...

## Berbokun İrəvana səfəri Qərbin sülhlə bağlı yeni mövqeyinə işarədirmi?
## Almaniya və ABŞ yeni siyasi nizamın əsas müttəfiqinə çevrilə biləcəkmi?

Avropa yeni siyasi situasiyanın astanasındadır. 2025-ci ilin əvvəlindən etibarən dünyada yeni siyasi münasibətlər sisteminin formalaşdırılması gözlənilir ki, bunun da ən böyük ölçüdə məhz Qərbin siyasi davranışlarına təsir edəcəyi proqnozlaşdırılır. Başqa sözlə, yeni nizam Qərbdə "tərəzinin çəki daşlarını" dəyişəcək.

Bu prosesə hazırlığın getməsi isə müəyyən ştrixlərlə diqqəti cəlb edir. Xüsusilə, ABŞ-da keçirilən son prezident seçkilərinin nəticələri yeni siyasi proseslərin inkişafına yön verən hadisə kimi qiymətləndirilir. Bu fonda isə:

- Avropada son bir neçə ildə ön plana "sıçradılmış" Makron hakimiyyəti və ümumilikdə Fransa ikinci plana keçir;

- Almaniya yenidən avrosentrist Qərbin əsas dövləti statusunu qazanır;

- ABŞ-ın Avropa və Asiya siyasətində, eləcə də digər regionlardakı siyasi-hərbi qarşıdurmaların həlli prosesində ən yaxın "müttəfiqi" kimi rəsmi Berlin çıxış edəcək. Məsələnin ən açıq arqumentləri Almaniyanın XİN başçısının oktyabrın sonunda Çinə, bu günlərdə isə Ermənistana səfər etməsidir.

- ABŞ yeni yanaşması ilə Avropanın daxilində yeni siyasi prosesləri başlatmaq niyyətindədir.

Beləliklə, Makronun Aİ üzərindəki hegemoniyası başa çatır. Paris xüsusilə, narahatdır - Makronun fürsət düşdükcə ABŞ-ın yeni hakimiyyətinə və Almaniyaya qarşı "cəbhə" açması da bunu təsdiqləyir...

### Ermənistana "sirli səfər"...

Almaniyanın aktivləşməsi məsələsinə bir neçə aspektdən yanaşaq - ilk olaraq Almaniya XİN başçısı Berbokun Ermənistan səfərinə toxunmaq gərəkir. Səfər çərçivəsində Ermənistan XİN-in rəhbəri Ararat Mirzoyan da daxil olmaqla, bəzi rəsmi şəxslərlə görüşən Annalena Berbokun keçirdiyi bu görüşlərin mahiyyəti haqqında geniş məlumatlar verilmir - erməni KİV-ləri də məsələni yalnız "ikitərəfli və regional görüşlər" müstəvisində "qapadır". Amma paralel olaraq bəzi məsələlərin gündəmə gətirilməsi müəyyən fikir yaradır:

- Ermənistanın Azərbaycanın artıq uzun müddətdir ki, səsləndirdiyi tələblərə "qulaq verməsi";

- Uzun müddətdən sonra erməni KİV-ində Fransanın patronajlığı altında olan Aİ-nin Monitorinq Missiyası haqqında "fəaliyyətsiz qurum" kimi təqdimatın verilməsi;

- Ard-arda bəzi erməni saytlarında sülh müqaviləsi ilə bağlı yaxın zamanda mühüm irəliləyişlərin olmasına işarələrin vurulması...

Beləliklə, Berbokun səfərini ilk növbədə regionla bağlı "xüsusi ambisiya"lara malik ölkələrin bu günə qədər apardıqları fəaliyyətin bloklanması kimi də qəbul etmək olar.

O ki qaldı, Çin səfərinə, burada vəziyyət tam başqadır - ABŞ-ın yeni administrsiyasının Çin ilə münasibətləri ılıqlaşdırmaq istəməsi sirr deyil. Bu mənada da Berbok Pekin ziyarətini Trampın "elçisi" statusunda etməsi düşünülür...



### Almaniya Cənubi Qafqaza "yad" deyil...

Hazırda əsas diqqət Cənubi Qafqazdadır - əslində, Almaniyanın birdən-birə Cənubi Qafqaza "maraq" göstərməsi faktı təsadüf də sayıla bilməz. Hətta 1994-cü ildə artıq mövcud olmayan ATƏT-in Minsk Qrupunun həmsədrlik institutunun yaradılması zamanı Azərbaycan Türkiyənin və ya Almaniyanın həmsədr olmasını təklif etmişdi - bu mövqe Azərbaycan tərəfindən regional və tarixi yaxınlıq baxımından irəli sürülmüşdü. Ancaq Fransa prezidenti Fransua Mitteran şəxsən Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşərək Fransanın həmsədrlik etməsini dəstəkləməsini xahiş etmişdi. O, həm Ermənistan ilə Fransanın yaxınlığının məsələnin həllinə kömək göstərəcəyini, həm də Fransa ilə Azərbaycan arasında strateji əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədi daşıdığını bildirmişdi.

Bu gün artıq yeni mərhələdə, sülhə bir addım qalmış Fransa yenə də özünün mənfi xarakterli addımlarından çəkilmir - Bayden adminstrasiyası ilə birgə "çirkin cütlük" mahiyyəti yaradan "koalisiya" Cənubi Qafqazda sülhə açıq şəkildə mane olur. Görünən isə budur ki, Bayden adminstrasiyası kimi Makron hakimiyyəti də artıq özünün qürub çağını yaşayır. ABŞ-ın yeni hakimiyyəti məhz Almaniya ilə daha çox həm siyasi yaxınlıq nümayiş etdirir, həm də iki ölkənin tezisləri bir çox məsələlərdə uzlaşır.

### Arqumentlər nəyi göstərir?

Almaniya "Bayden-Makron" koalisiyasından uzaq dayandı. Yeni reallıqlarda bu mövqe Berlini Avropanın yenidən ön sırasına daşıyacaq. Almaniyanın Avropanın lideri statusunu qazanmaq üçün bir çox siyasi addımları atması və ABŞ-ın yeni hakim komandası ilə paralel hərəkət etməsi ortadadır:

1. Bayden administrasiyası və Fransa da daxil olmaqla bəzi ölkələr Ukraynaya Rusiyanın dərinliklərinə zərbə vurmaq üçün "icazə" və raket verdiyi halda Almaniya bundan imtina etdi. Kansler Olaf Şolts Braziliyada keçirilən G20 liderinin Sammitində Almaniyanın mövqeyini açıq şəkildə çatdırdı: Almaniya Ukraynaya uzun mənzilli "Taurus" raketlərinin verilməsindən imtinası ilə bağlı mövqeyini dəyişməyəcək;

2. Həmin iclasda Fransa prezidenti Makron ABŞ-ın yeni dövlət başçısı Donald Trampı hədəfə aldığı halda, Almaniya bu məsələdə Parisi dəstəkləmədi;

3. Nəhayət, Şoltsun rəhbərlik etdiyi komanda açıq şəkildə Fransanın Aİ daxilində apardığı qeyri-stabil oyunlardan "doyduqlarını", Avropa məkanındakı dövlətləri qarşı-qarşıya qoymaq cəhdlərini tənqid etdilər.

Beləliklə, Almaniya uzun müddətdir ki, dözdüyü və Avropanı pis situasiyaya daşıyan "Paris oyunlarını" başa çatdırır. Ekspertlər güman edir ki, Cənubi Qafqaz da daxil olmaqla Bayden-Makron cütlüyünün siyasi-hərbi narahatlıqlar yaratdığı bölgələrin əksəriyyətində vəziyyətin stabilləşməsi üçün genişmiqyaslı planlar hazırlanır...

### Şoltsun Bakıya zəngi...

Almaniyanın bölgəyə münasibətdə tutduğu mövqe isə Fransaya nəzərən daha fərqlidir - düzdür, bəzi məqamlarda bu ölkəni təmsil edən rəsmi şəxslər dövrün konyukturası baxımından qeyri-stabil mövqe sərgiləsələr də, bu, epizodik şəkildə nəzərə çarpıb. Almaniya Fransa qədər regionun gələcəyinə "çubuq uzatmaq" fikrində olmayıb. Hətta noyabrın 9-da kansler Olaf Şolts Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib - Telefon danışığı əsnasında kansler Olaf Şolts Almaniyada yaranmış siyasi vəziyyətə görə Azərbaycanın ev sahibliyi etdiyi COP29 konfransının liderlər sammitində iştirak edə bilməyəcəyini təəssüflə qeyd edib.
Kansler Olaf Şoltz COP29 iqlim konfransının uğurla keçməsinin əhəmiyyətinə toxunaraq Almaniyanın yeni maliyyə hədəfinin əldə edilməsi üçün lazımi dəstək göstərəcəyini bildirib. Söhbət əsnasında kansler Olaf Şolts Almaniyanın Azərbaycan ilə Ermənistan arasında sülhün və mehriban qonşuluq münasibətlərinin qurulmasını dəstəklədiyini qeyd edib və bu xüsusda, ölkəsinin tərəfləri cəsarətli addımlar atmağa çağırdığını deyib. Bu fakt da özlüyündə Almaniyanın məsələnin sülh yolu ilə həll olunmasına Fransadan daha səmimi şəkildə can yandırdığını deməyə əsas verir.

### Almaniya ABŞ ilə Rusiya arasında körpü yaradır...



Almaniya liderinin bir neçə gün öncə Kremlə zəngi də əsaslı arqumentlərdən növbətisi kimi qarşıya çıxır - Olaf Şolts ilə Rusiya prezidenti Vladimir Putin arasında baş tutmuş telefon zənginin detalları bir sıra yeni məqamlara işarədir. Hətta Kremlin mətbuat xidmətinin yaydığı məlumatda bildirilirdi ki, əsas mövzu Ukrayna müharibəsi oub - prezident Putin Rusiyanın danışıqlardan heç bir zaman imtina etmədiyini və danışıqlara açıq olduğunu bildirib. "Ukrayna ilə bağlı mümkün razılaşmalar Rusiya Federasiyasının təhlükəsizlik maraqlarını nəzərə almalı, ərazi reallıqlarına əsaslanmalı və münaqişənin köklü səbəblərini aradan qaldırmalıdır", - deyə Kremlin telefon zəngi ilə bağlı açıqlamasında qeyd olunurdu.

Həmin vaxt Almaniya mətbuatı 2 il yarımdan sonra edilən bu zəngi Qərbin, xüsusilə ABŞ-ın yeni administrasiyasının Almaniyanın əli ilə Rusiyanın "reaksiyasını yoxlamaq" cəhdi adlandırmışdı. Zəngin ABŞ-ın yeni rəhbərliyi tərəfindən "təşkil olunması" versiyası ilə ağlabatan sayıla bilər - çünki, Rusiyaya edilən zəngdən öncə Şolts ilə yeni prezident Tramp arasında analoji telefon danışığı aparılmışdı. "Reuters" Almaniya hökumətinin nümayəndəsinə istinadən məlumatına görə, söhbət zamanı geosiyasi çağırışlar və ikitərəfli münasibətlər müzakirə olunubmuş. "Kansler Almaniya hökumətinin iki ölkə arasında onilliklər boyu davam edən uğurlu əməkdaşlığı davam etdirməyə hazır olduğunu vurğuladı. Onlar həmçinin Avropada sülhün bərqərar olması üçün birgə işləmək barədə razılığa gəliblər", - Nazirlər Kabinetinin nümayəndəsi bildirib. Beləliklə, Berlin Vaşinqton ilə Moskva arasında siyasi körpü yaradır.

Bu isə əsaslı arqumentdir. Beləliklə, bütün faktlar yeni dövrdə Qərbin siyasi səhnəsində iki "aktyorun" oyununu daha aktiv şəkildə görəcəyimizə işarə edir - Almaniya ilə ABŞ-ın yeni hakimiyyəti ötən 4 ildə kollektiv Qərbin buraxdığı səhvləri kompensasiaya etməklə məşğul olacaq

***P.SADAYOĞLU***

# İkinci cəhd...

## Fransa Makrondan xilas olmalıdır
## Prezidentin impiçment məsələsi yenidən gündəmdə

**Son illərdə Fransa öz tarixinin ən pis dönəmindən keçir. Yelisey Sarayının dünyada, xüsusilə də Avropa İttifaqı (Aİ) məkanında nüfuzu əhəmiyyətli dərəcədə aşağı düşüb, Afrikadakı və dənizaşırı ərazilərdəki müstəmləkə ölkələrində tez-tez rəsmi Parisə qarşı etirazlar baş qaldırır, "Rədd ol, Fransa!" şüarları səsləndirilir. Ölkə daxilində də vəziyyət arzuedilən deyil. İqtidar komandasında mənfi meyillərin, o cümlədən də narkomaniyanın genişləndiyi barədə xəbərlər konkret faktlarla təsdiqini tapır. Bu gün Fransada iqtidarla cəmiyyət arasında antaqonist zddiyyətlərin pik nöqtəyə çatdığı müşahidə edilir, hakimiyyətə inamsızlıq heç vaxt olmadığı qədər artıb.**

### Parlamentdə Makronun impiçmentinə ikinci cəhd

Bütün bunların səbəbi kimi isə prezident Emmanuel Makronun səriştəsiz idarəçiliyi göstərilir. Bildirlir ki, onun ökənin reallıqlarını, qlobal çağırışları, cəmiyyətin sosial sifarişlərini nəzərə almadan verdiyi populist qərarlar Fransanı hər cəhətdən açınacaqlı duruma salıb. Buna görə də fransızlar arasında belə bir yekdil fikir formalaşıb ki, ölkə getdikcə artan problemlərdən, dərinləşən siyasi və iqtisadi böhrandan xilas olmaq üçün ilk növbədə prezident Makrondan qurtulmalıdır.

Fransadakı ümumi ictimai-siyasi ab-havaya uyğun olaraq bu günlərdə Makronun impiçment məsələsi yenidən gündəmə gəlib. Belə ki, solçu blokun ən böyük partiyası "İtaətsiz Fransa" Makronun impiçment prosedurunu başlatmaq üçün növbəti dəfə təşəbbüs göstərib. Bu barədə AFP agentliyi məlumat yayıb.

Müraciət Fransa Milli Assambleyasının (parlamentin aşağı palatası) Bürosu tərəfindən təsdiqlənib. Qeyd olunur ki, deputatlar müvafiq qətnaməni noyabrın 28-də təqdim etməyi planlaşdırırlar. Xatırladaq ki, bu partiyanın nümayəndələri payızın əvvəlində oxşar təklif irəli sürmüşdülər, lakin sonradan bu təklif rədd edilmişdi. Təşəbbüs ölkə konstitusiyasının 68-ci maddəsinə uyğun olaraq prezidentin impiçment prosedurunu nəzərdə tutur.

Qısa müddət ərzində Fransa parlamentində iki dəfə prezidentin impicment məsələsinin gündəmə gətirilməsi əslində ölkənin ciddi siyasi böhranla üzləşməsinin təsdiqidir. Onu da vurğulayaq ki, artıq Fransa prezidentinin reytinqi antirekord həddə enib.

Bu barədə məlumat "Verian-Epoka" tədqiqat mərkəzinin "Figaro" nəşri üçün apardığı araşdırmanın nəticələrində əksini tapıb.

Araşdırmaya görə, Fransa liderinin populyarlıq səviyyəsi daha beş faiz azalaraq 17 faizə enib. Bu, Makronun prezident seçildiyi 2017-ci ildən bəri ən aşağı göstəricidir. Eyni zamanda, respondentlərin 78 faizi prezidentin fəaliyyətindən narazı olduqlarını bildirib.

Sağçı "Milli Birlik" partiyasının rəhbəri Jordan Bardella və onun parlamentdəki fraksiyasının lideri Marin Le Pen populyarlıq səviyyəsinə görə Makronu qabaqlayaraq reytinqdə müvafiq olaraq bırinci və ikinci yerləri bölüşüb.

Fransa liderinin təmsil olunduğu partiyada fəalların sayı il ərzində təxminən dörd dəfə azalaraq 35 mindən 8,5 minə düşüb. Növbədənkənar parlament seçkilərindən sonrakı bir ay ərzində isə Makronun siyasəti ilə razılaşmayan dörd deputat prezident fraksiyasını tərk edib.

Qeyd edək ki, bir müddət öncə, Makron Fransa parlamentinə və Avropa Parlamentinə seçkilərdə partiyasının aşağı nəticələrinə baxmayaraq, prezident postunu tərk etmək niyyətində olmadığını və 2027-ci ilin mayında keçiriləcək seçkilərədək vəzifəsində qalacağını bildirib.




### Seçkilərin nəticələri - hakim komandanın siyasi iflası ortadadır

Bu gün Fransada Makron iqtidarının siyasi iflasını təsdiqləyən çoxsaylı faktlar sadalamaq mümkündür. Əlbəttə ki, prezidentin nüfuzunun quyunun dibinə düşməsi bunun ən bariz göstəricisidir. Eyni zamanda, cari ildə keçirilən üç mühüm seçkinin nəticələri də hazırkı iqtidar komandasına inamsızlığın pik həddə yüksəldiyini təsdiqləyir. Söhbət 2024-cü ildə baş tutan Avropa Parlamentinə və Milli Assambleyaya seçkilərin nəticələrindən gedir. Fransada indiki siyasi iflas məhz son üç seçki cəhdindən sonra daha da kəskinləşib.

Birinci cəhd Avropa Parlamentinə seçkilər oldu. Xatırladaq ki, Fransada iyunun 9-da Avropa Parlamentinə keçirilən seçkilərdə sağçı "Milli birlik" partiyası 31,36 faiz səs toplayaraq Makron koalisiyasını iki dəfədən çox üstələyib. Partiyasının Avropa seçkilərində iflasından sonra Makron parlamentin aşağı palatasını buraxaraq növbədənkənar seçkilər elan etdi. Bu qərar əslində Makronun revanş cəhdi idi. Ancaq Makronun ikinci seçki cəhdi də uğursuz oldu. Belə ki, Milli Assambleyaya seçkilərin birinci turunda sağçı "Milli birlik" partiyası və onunla müttəfiq qüvvələr 33,4 faiz səs toplayaraq qalib gəldi. Həmin eçkilərdə ikinci yeri 27,98 faizlə solçu "Yeni Xalq Cəbhəsi" koalisiyası qazandı. Makronun mərkəzçi adlandırılan koalisiyası isə 20,76 faiz səslə yalnız üçüncü yerlə kifayətlənməli oldu.

Makronun komandası dalbadal iki məğlubiyyətdən sonra üçüncü seçki cəhdinə saxtakarlığa, siyasi oyunbazlığa qol qoymaqla hazırlaşdı. Belə ki, Yelisey Sarayından gələn siyasi sifariş əsasında sağçıların ikinci turda mütləq qələbəsini əngəlləmək məqsədilə planlar quruldu - solçuların üstünlük təşkil etdikləri dairələrdə mərkəzçilər, mərkəzçilərin üstünlük təşkil etdikləri dairələrdə isə solçular namizədliklərini geri götürdülər və 200-dən çox namizəd ikinci tur seçkilərinə qatılmadı. Bu seçki oyunu prezident koalisiyasına müəyyən üstünlüklər yaratmaqla mərkəzçi düşərgədən birinci turla müqayisədə daha çox namizədin qalib gəlməsinə yol açsa da, Makronun parlamentdə mütləq səs çoxluğuna nail olmaq istəyini təmin etmədi. Mərkəzçilər ikinci turun nəticələrinə görə Mari Le Penin partiyasını üstələsələr də, yalnız ikinci yerlə kifayətlənməli oldular. Daxili İşlər Nazirliyinin verdiyi məlumata görə, parlamentdə solçular 182, Makronun mərkəzçi alyansı 168, ifrat sağçıları təmsil edən Mari Le Penin "Milli birlik" partiyası və onun müttəfiqləri isə 143 yer qazanıb.

Analitiklər Makron üçün çətin hakimiyyət dövrünün başladığını, makronizm üçün sonun gəldiyini anons edirlər. Ümumiyyətlə, parlamentin yeni formalaşan tərkibi ilə onun ölkəni normal qaydada idarə edə biləcəyi mümkünsüz görünür. Qeyd edək ki, Fransa Milli Assambleyası 577 deputatdan təşkil olunur. Parlamentdə çoxluğu əldə etmək istəyən partiyaya 289 mandat lazımdır. Bundan əvvəlki seçkilərdə Makronun koalisiyasını Milli Assambleyada cəmi 250 deputat təmsil edirdi. Buna görə də mərkəzçi koalisiya parlament çoxluğunu qazanmaqdan ötrü digər partiyaların təmsilçilərinin səsini almaq, bunun üçün hətta hansısa sövdələşmələrə getmək məcburiyyətində qalırdı. Mərkəzçilər üçün indiki say tərkibi ilə bunu etmək daha çətin olacaq. Yeni formalaşan parlamentdə cəmi bir neçə ay ərzində iki dəfə Makronun impiçmenti məsələsinin gündəmə gətirilməsi bu fikri əyani şəkildə təsdiqləyir.



### Barnye hökumətinə etimadsızlıq

Konstitusiyaya görə, seçkilərdən sonra hökumət parlamentin yeni tərkibinə uyğun olaraq formalaşdırılmalı idi. Lakin Makron konstitusion tələblərə və demokratik prinsiplərə məhəl qoymayaraq yeni hökumətin formalaşmasını xeyli yubatdı və sentyabr ayında sabiq Avropa komissarı və Fransanın sabiq xarici işlər naziri Mişel Barnyeni yeni Baş nazir təyin etdi. Çox doğru olaraq Makronun bu addımı onun seçkilərin nəticələrini tanımaması anlamında qəbul edilir. 2024-cü il qanunvericilik seçkilərindən sonra solçuların nisbi çoxluq əldə etmələri fonunda heç kim respublikaçının Baş nazir təyin ediləcəyini gözləmirdi. Bununla belə absurd reallıq ortadadır. Makron şəxsi iradəsini ölkə qanunvericiliyinin fövqündə qoyaraq Mişel Barnyeni Baş nazir postuna gətirib. Daha da pisi odur ki, təyin olunan yeni nazirlərin demək olar, hamısı respublikaçılar və ya "Renessans" (Renaissance) yəni, Emmanuel Makronun partiyasındandır.

Lakin Mişel Barnyenin qurduğu yeni hökumət ona miras qalan çətinlikləri aradan qaldırmaq iqtidarında deyil. Hökumətin problemlər qarşısında acizlik nümayiş etdirməsi isə ölkədə kəskin etirazlar doğurur. Fransızların yarıdan bir qədər çoxu - 51 faizi Mişel Barnye hökumətinə etimadsızlıq səsverməsinin lehinədir. Bunu BFMTV-nin sifarişi ilə "Elabe" tədqiqat və konsaltinq mərkəzinin keçirdiyi sorğunun nəticələri sübut edir. Telekanal sorğunun nəticələrinə dair şərhində qeyd edib ki, hələ oktyabrda azlıq hökumətin buraxılmasının tərəfdarı idi. Münasibətdə dəyişiklik Mari Le Penin ifrat sağçı "Milli Birlik" elektoratının tutduğu mövqe ilə əlaqədar baş verib.

Qeyd olunur ki, parlamentin aşağı palatasının deputatlarının bəziləri, xüsusən "Yeni Xalq Cəbhəsi" sol koalisiyasının bir hissəsi, hökumət Konstitusiyanın 49.3-cü maddəsini parlamentarilərin razılığı olmadan dövlət maliyyəsi haqqında qanun layihəsini qəbulu üçün tətbiq edərsə, etimadsızlıq səsverməsinin mümkünlüyü məsələsini qaldırır.

Oktyabrın əvvəlində Barnye kabineti əhəmiyyətli ictimai dəstəyə malik idi, fransızların yalnız 37 faizi etimadsızlıq səsverməsini istəyirdi.

Tədqiqatın nəticələrindən belə çıxır ki, "Milli Birlik" seçiciləri etimadsızlıq səsverməsinə dəstəklərini artırıblar. Sorğunun nəticələrinə görə, Le Pen tərəfdarlarının 61faizi belə qərarı dəstəkləyib. Bu, ötən ayla müqayisədə 32 faiz bəndi çoxdur.

### Ölkə mitinqlər dalğası ilə üz-üzə

Prezident Makrona, Barnye hökumətinə siyasi etimadsızlıq fonunda ölkə həm də çoxsaylı iqtisadi problemlərdən qaynaqlanan mitinqlər dalğası ilə üz-üzə qalıb. Səbəb yenə də Makronun təşəbbüsləri əsasında verilən qərarlardır. Son olaraq Fransanda Avropa İttifaqı ilə Cənubi Amerika ümumi bazarı (MERCOSUR) arasında mümkün azad ticarət sazişinin imzalanmasına qarşı fermerlərin etiraz aksiyaları başlayıb. "Le Parisien" qəzetinin məlumatına görə, Fermerlərin Həmkarlar İttifaqlarının Milli Federasiyası və "Gənc Fermerlər" Assosiasiyasının nümayəndələri Paris yaxınlığındakı N118 avtomobil magistralını traktorlarla bağlayıblar. Onlar ərazidə etiraz aksiyası keçirməyi planlaşdırırlar.

Nümayişlər, həmçinin ölkənin digər yerlərində və magistral yollarda təşkil olunub. Fermerlər Avropa İttifaqının ticarət razılaşması istiqamətindəki kursuna etiraz əlaməti olaraq adlarında "Avropa" sözü olan meydan və küçələrə daxil olmağa çalışırlar. Avinyon şəhərində fermerlər Avropa körpüsünün bir hissəsinə traktorlar yerləşdiriblər.

BFM TV-nin məlumatına görə, fermerlərin ölkə daxilində təxminən 80 nümayişi qeydə alınıb.

***Mübariz ABDULLAYEV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Hüquqi dövlətin təməli...



## Ədliyyə işçilərinin peşə bayramıdır

Ölkəmizin keyfiyyətcə yeni və səmərəli fəaliyyət mərhələsinə qədəm qoymuş məhkəmə-hüquq islahatları var. Məhz həmin islahatlar ədliyyə orqanlarının inkişafına yönəlib. Dünya təcrübəsi də göstərir ki, hüquqi dövlətin qurulmasının təməlində möhkəm ədliyyə sistemi dayanır. Möhkəm ədliyyə sisteminin yaradılması isə əzm və iradə tələb edir.

Ümumiyyətlə, ədliyyə sözünün mənası çox genişdir. Mükəmməl ədliyyə sistemi olan dövlətdə vətəndaşların hüquq və azadlıqları, qanun qarşısında bərabərlikləri təmin olunur. Bu gün ədliyyə işçilərinin peşə bayramıdır. Heydər Əliyev tərəfindən imzalanmış 11 noyabr 2000-ci il tarixli Sərəncamla Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilib.

**Sağlam zəmində qurulan vətəndaş-məmur münasibəti**

İnsanlara layiqli xidmət, vətəndaş məmnunluğu ədliyyə işçilərinin fəaliyyətinin əsas prioritetidir. Dövlət başçısının tələbləri daim rəhbər tutulmaqla vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, vətəndaşların müraciətlərinə daim diqqət və qayğı ilə yanaşılmasına şahid oluruq. İcra intizamına və etik davranış qaydalarına əməl olunması ədliyyə işçilərinin ən ümdə vəzifələridir və sevindirici haldır ki, onlar bu vəzifələri layiqincə yerinə yetirirlər.

**Ədliyyə sahəsində texnoloji yeniliklər**

Son illər bütün sahələrdə olduğu kimi ədliyyə sahəsində də yeni texnoloji nailiyyətlərin şahidi oluruq. Belə ki, vətəndaş məmnunluğu doğuran “Mobil notariat” tətbiqi vasitəsilə müəyyən notariat hərəkətləri məsafədən daha asan, sürətli və rahat həyata keçirilir. Dövlət orqanları arasında ən çox istifadə edilən “Mobil notariat” tətbiqinin istifadəyə verilməsi, eyni zamanda, ölkə hüdudlarından kənarda olan vətəndaşlarımız üçün daha çox yararlı olub.

**Ədliyyə işçiləri Prezidentin ətrafında sıx birləşiblər**

Bu gün fəxrlə söyləyə bilərik ki, Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyada lider dövlətlərdəndir. Ümumiyyətlə, son 23 ildə Ədliyyə Nazirliyində peşə bayramının qeyd olunması ədliyyə işçiləri tərəfindən geniş miqyaslı olmaqla bərabər, xüsusi maraq və böyük ruh yüksəkliyi ilə qeyd edilir.

Azərbaycanın bütün ədliyyə işçiləri dövlət başçısının ətrafında sıx birləşib. Şanlı Zəfərlə Azərbaycan ədliyyəsi də yeni tarixi mərhələyə qədəm qoyur. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq azad edilmiş ərazilərdə ədliyyə və məhkəmə fəaliyyətinin bərpa olunması, bu orqanların infrastrukturunun yaradılması, onların işinin təşkili üzrə zəruri tədbirlərin görülməsi isə ədliyyə sahəsində çalışanların qarşısında duran mühüm vəzifələrdəndir.

Ədliyyə işçilərini peşə bayramları münasibətilə təbrik edir, onlara qanunun aliliyi və insan hüquqlarının təmin olunması kimi şərəfli fəaliyyətlərində yeni nailiyyətlər arzulayırıq!

*Yeganə BAYRAMOVA*

# Dünyada qəhvə ixracı 12 faizə yaxın artıb



2023-2024-cü il marketinq mövsümündə dünyada qəhvə ixracı 11,7 faiz artaraq 137,27 milyon kisəyə (hər kisə 60 kiloqramdır) çatıb.

Bu barədə Beynəlxalq Qəhvə Təşkilatının (ICO) hesabatına deyilir.

Məlumata görə, yaşıl (qovurulmamış) qəhvənin tədarükü də 11,8 faiz artaraq 123,75 kisə təşkil edib.

Mövsüm ərzində makroregionlar arasında tədarükü 30,7 faiz artaraq 66,13 milyon kisəyə çatan Cənubi Amerika ən böyük qəhvə ixracatçısı kimi mövqeyini qoruyub. Braziliya 49,03 milyon kisə qəhvə ixrac edərək rekorda imza atıb. Afrikada isə tədarük 17,3 faiz artırılaraq 16,02 milyon kisəyə çatdırılıb.

Eyni zamanda, Asiya və Okeaniya regionu ölkələrində qəhvə tədarükündə 6,7 faiz azalma qeydə alınıb.

# Uşaqlar arasında təhlükəli virus yayılıb

## Qızılcaya bənzəyir...

Son günlər uşaqlar arasında təhlükəli virus yayılıb. Əsasən 5-15 yaş aralığında uşaqların çox yoluxduğu virus qripə oxşar simptomlarla müşayiət olunduğundan valideynlər arasında çaşqınlıq yaradır. Həkimlər azyaşlılar arasında yayılan virusu qızılca xəstəliyinə də bənzədirlər. Lakin qızılcadan fərqli olaraq bu virusdan qaynaqlanan səpkilər mərhələli şəkildə yox, tam yayılır.

Virusun əlamətləri qızılca ilə oxşar olduğundan düzgün müalicənin aparılması vacibdir. Əks təqdirdə mütəxəssislər xəstəliyin ağır fəsadlara səbəb ola biləcəyini istisna etmirlər.

Mövzu ilə bağlı “Yeni Azərbaycan”a danışan pediatr Günay Rəsulovanın sözlərinə görə, son günlər uşaqlarda müşahidə olunan bu simptomlar koksaki virusunun əlamətləri ola bilər:

“Koksaki virusunun əsas əlamətlərindən biri ağız bölgəsində, ağız içində, əllərdə, dirsəklərdə səpkilərlə müşahidə olunur. İlk baxışda qızılcaya bənzəyən bir virusdur. Qızılcada olduğu kimi koksaki virusunda da qızdırma yüksək olur, xəstəlik dərmana tabe olmur. Ağrılı virus olduğuna görə, əsasən ağız içi, boğaz nayihələrində ağrı olduğu üçün uşaqlarda yeməkdən, sudan imtinaetmə halları baş verə bilir. Bu yoluxucu virusa uşaqlar hava-damcı yolu ilə, yaxud da çirkli məhsullar vasitəsi ilə yoluxurlar. Səpkilər iki-üç gün, bəzən də on gün davam edə bilər”.



**Ən böyük yanlışlardan biri**

Pediatr qeyd edib ki, əgər bu dövrdə ikinci virusa yoluxma olarsa, vəziyyət daha da ağırlaşır: “Ən böyük yanlışlardan biri bu xəstəlik zamanı qızdırma yüksək olduğuna görə uşağa antibiotik dərmanların verilməsidir. Xəstəlik zamanı digər virus infeksiyalarında olduğu kimi antibiotik verilməsi ilə uşağın immuniteti aşağı salınarsa, virusun daha çox şiddətlənməsinə səbəb ola bilər.

Odur ki, bu virusla bərabər uşaqda pnevmoniya, ensefalit kimi ağırlaşmalar görülə bilər. Yoluxma zamanı xüsusi qida rasionuna əməl etməyə ehtiyac yoxdur. Sadəcə bol maye qəbul edilməsinə diqqət yetirilməlidir”.

**Düzgün müalicə edilməzsə...**

Həkimin sözlərinə görə, virusa yoluxan uşaqların yetərsiz və ya səhv müalicə edilməsinin nəticəsi ağır ola bilər. Belə ki, xəstəlik düzgün müayinə və müalicə edilməzsə, böyrək çatışmazlığı kimi həyati təhlükələrə səbəb ola bilər: “Virus yoluxduğu bədəndə birbaşa ürək əzələlərinə də təsir edə bilir ki, bu da ürək ritminin pozulması ilə nəticələnə bilər. Bu səbəbdən də sözügedən simptomlarla qarşılaşan valideynlər diqqətli olmalıdırlar”.

*Yeganə BAYRAMOVA*

**Allah rəhmət eləsin!**

“Yeni Azərbaycan” qəzetinin baş redaktoru Alqış Həsənoğlu və qəzetin kollektivi **XEYRULLA HÜMBƏTOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov və təşkilatın kollektivi **XEYRULLA HÜMBƏTOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.



## UEFA İsveç - Azərbaycan oyununda hakim səhvi olduğunu etiraf edib

UEFA Millətlər Liqasının C Divizionunun 1-ci qrupunda İsveç və Azərbaycan yığmaları arasında keçirilmiş VI tur oyununda (6:0) VAR hakimlərinin nəticəyə təsir edən səhvə yol verdiklərini etiraf edib.




AZƏRTAC xarici mətbuata istinadən xəbər verir ki, ilk hissənin əsas vaxtına əlavə olunmuş 2-ci dəqiqədə meydan sahibi komandanın hücumçusu Aleksander İsakın vurduğu qolun ofsayd səbəbindən qeydə alınmamasının yanlış qərar olduğu təsdiqlənib.

UEFA-nın həmin epizodla bağlı açıqlamasında ofsayd xəttinin düzgün çəkilmədiyi və bunun videoköməkçi hakimin səhvi olduğu bildirilib.

Qeyd edək ki, oyundan sonra Aleksandr İsak da qərarın doğru olmadığını vurğulamışdı.

## Taekvondoçumuz Avropa üçüncüsü olub

Azərbaycan taekvondoçusu Səyyad Dadaşov Bosniya və Herseqovinanın Sarayevo şəhərində keçirilən Avropa çempionatında uğurla çıxış edib.

Azərbaycan Taekvondo Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, o, 21 yaşadək idmançılar arasında təşkil olunan yarışda üçüncü olub.

Bununla da 54 kiloqram çəkidə mübarizə aparan S.Dadaşov bürünc medala sahib çıxıb.




## Azərbaycanın oğlanlardan ibarət yığması EEVZA çempionatında iştirak edəcək

Azərbaycanın 16 yaşadək oğlanlardan ibarət millisi Şərqi Avropa Voleybol Zonal Assosiasiyasının (EEVZA) çempionatında iştirak edəcək.

Bu barədə “Report”a Azərbaycan Voleybol Federasiyasının mətbuat xidmətindən məlumat verilib.

Yarış noyabrın 27-30-u aralığında Estoniyada keçiriləcək.

Turnirdə ev sahibi ilə yanaşı Azərbaycan, Latviya, Gürcüstan, Ukrayna və Polşa yığmaları mübarizə aparacaq. B qrupunda yer alan millimizin rəqibləri Latviya və Estoniya kollektivləridir. U-16 noyabrın 27-də Estoniya, iki gün sonra Latviya ilə görüşəcək.

Qeyd edək ki, yarış AVRO-2025-ə seçmə xarakter daşıyır. Reqlamentə əsasən, çempion qitə birinciliyinin final mərhələsinə vəsiqə qazanacaq.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4809**
**Sifariş: 2679**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli